

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ICESCO-nun qərargahında olub



5


# SƏS

№ 190 (7115)

16 oktyabr 2024-cü il.
Qiymətı 60 qəpik


# 270 illik zamanın axarını dəyişən 21 il



2

# Azərbaycan Sizin sözünüzü gözləyir!

## (Ziyalıların Heydər Əliyevə müraciəti)



4

## 16 oktyabr 2020-ci il: QƏLƏBƏDƏN-QƏLƏBƏYƏ



6

## "Sülh qovşağı" adlı UYDURMA



11

## Uşaqların "Tik-Tok"da nə işi var?..



12

## Süd vəzi xərçəngi: nə qədər erkən diaqnoz, o qədər uzun ömür



15

## "Müəllimlərin intiharı ciddi şəkildə araşdırılmalıdır"



16

# 270 illik zamanın axarını dəyişən 21 il

***21 il... Heç də uzaq keçmiş deyil. Hər birimizin yaşadığımız, hər ayına, anına şahidlik etdiyimiz zaman kəsiyidir. Elə bu səbəbdən də ötən 21 il hər bir hadisəsi ilə gözlərimiz önündə olduğu kimi canlanır: Düşünülmüş siyasət nəticəsində Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə canlanır. Dövlətimizin sıravi vətəndaşından tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan-böyüyə hər kəsə qayğısı ilə canlanır.***

Dövlət rəhbərinin ölkənin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına ehtiramı ilə canlanır. Ötən 21 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsi, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün böyükmiqyaslı tədbirlərin həyata keçirilməsi ilə canlanır.

Ordu quruculuğu məsələsinin üzərində bir qədər dayanmaq istərdim. Çünki ötən 21 il daha çox torpaq və ordu ifadələri ilə yaddaşlarda qalıb. Çünki ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayıb. Şərəf məsələsi olduğu üçün bu, ümumilikdə hər bir vətəndaşın problemi idi. Xalq hərtərəfli inkişaf edən bir ölkədə yaşasa da, onun "Qarabağ" adlı 30 illik bir dərdi vardı ki, sağalmasını, şəfa tapmasını gözləyirdi. Məcburi köçkünlərimiz yurd həsrəti ilə rahatlıq tapa bilmirdi. Onlar öz torpaqlarını istəyirdi. Qarabağ Azərbaycanın yarası idi. Həmin yara sağalardısa, Azərbaycan tam ola bilərdi. Bunu isə yalnız dövlətin başçısı, Ali Baş Komandan, milli ordunun sərkərdəsi həll edə bilərdi.







Xalq Qarabağın daha tez, hətta 90-cı illərdə işğaldan dərhal sonra azad olmasını arzulayırdı, lakin ölkənin buna imkanları çatırdımı? Bu arzu yalnız ölkə buna hazır olanda reallaşa bilərdi. Elə ötən 21 ilin prioriteti də məhz bu məsələnin üzərində qurulmuşdu. Buna görə də 270 illik zamanın axarını dəyişə bildi. Tarixin yeni bir səhifəsini açmaqla, "işğal" sözünü "azad" sözü ilə əvəz edə bildi.

## Yeri gələndə tarixçi, coğrafiyaçı, siyasətçi, yeri gələndə sıravi azərbaycanlı LİDER

Zaman göstərdi ki, məhz Heydər Əliyev və Zərifə xanım Əliyeva kimi dahi insanların, gözəl ata-ananın, ləyaqətli vətəndaşların, ictimai xadimlərin, vətənpərvər insanların ailəsində İlham Əliyev kimi övlad böyüyə bilərdi. Bu övlad ailənin bütün üstün cəhətlərindən zaman-zaman aldığı dəyərlərlə yumruğu boyda ürəyinə Azərbaycan böyüklükdə Vətən sevgisini elə sığdıracaqdı ki, bu sevgi bir gün xalqın, millətin xilasına çevriləcəkdi. 30 il işğal olunan torpaqlara görə başını dik tuta bilməyən xalqın başını zirvələrə qaldıracaqdı. Xalqa qürurunu, namusunu, iffətini qaytaracaqdı. Azərbaycanın işğal olunan torpaqlarının azad olunması ilə tarixin 270 illik zaman kəsiyinin axarını dəyişəcəkdi.



Deyirlər, yaxşı ataların yaxşı oğulları olur. Ulu Öndər Heydər Əliyevin Azərbaycana məhəbbətinin, sevgisinin, torpaqlarımızın işğalına ürək ağrısının, onların bir gün geri qaytarılması üçün mübarizələrinin davamını cənab İlham Əliyevdə gördük. Gördük ki, O, tək ailəsinə məxsus övlad yox, ümumilikdə Azərbaycan xalqının övladı oldu. Gördük ki, dövlətimizin başçısı kimi fəaliyyət dövrünün hər anı ölkəmizin inkişafına, dünyada tanınmasına, bir də ata nəsihətlərinin həyata keçirilməsinə sərf edilib. Gördük ki, Qarabağ məsələsi bir an da unudulmayıb. Liderimizin bütün bayramlarda xalqa müraciətlərdə Qarabağın bir gün azad olunacağına əminliyini dinlədik. Bu torpaqların düşmən tapdağı altında inləməsini ürək yanğısı ilə yaşadığını hiss etdik. Onların bir gün yenə də bizim olacağına xalqı əmin etdiyini gördük...

Prezidentimiz ən mötəbər tədbirlərdə Qarabağla bağlı dünyaya üz tutdu. Qarabağ həqiqətlərini onlara çatdırdı. Bütün dünyanı haqq səsimizə səs verməyə çağırdı. Bu qədim torpaqların Azərbaycana məxsusluğunu tarixi faktlarla sübut etdi. Bizim Prezidentimiz yeri gələndə tarixçi oldu, yeri gələndə coğrafiyaçı, yeri gələndə siyasətçi, yeri gələndə sıravi azərbaycanlı. Mükəmməl olaraq rus və ingilis dillərdə mötəbər kürsülərdəki səlis nitqləri ilə bir tərəfdən azərbaycanlı olduğu, bizim Lider olduğu üçün, digər tərəfdən isə xalqın istəklərini aydın çatdırdığı üçün qürur duyduq.

Bizim Prezidentimiz Azərbaycanın sülhün tərəfində dayandığını bütün dünyaya bəyan etdi. Dünyanı sülhə çağırdı. Ermənistanın dinc yolla torpaqlarımızı qaytarmasını tələb etdi. Liderimiz ikinci yolu da birinci yolla paralel inkişaf etdirirdi. Bu, hərb yolu idi. Dəfələrlə çıxışlarında, beynəlxalq tədbirlərdə açıq şəkildə bildirirdi ki, torpaqlarımız sülh yolu ilə qaytarılmazsa, hərb yolunu seçməli olacağıq. Belə də oldu. İkinci yolun harada və nə vaxt başlayacağını böyük uzaqgörənliklə hazırlayan cənab İlham Əliyev dünyanın qulaqlarının sülh çağırışına kar olduğunu bir daha yəqin edəndən sonra, ikinci yola çıxmağın zamanını bəyan etdi. Bu yol Ermənistanın yeni torpaqlar iddiasına dərhal verilən cavabla başlandı. 27 sentyabr 2020-ci il Qarabağın azadlığına gedən yol oldu. Cəmi 44 gün davam edən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının böyük Zəfəri ilə bitdi və tarixin 270 ildən artıq axarını dəyişib göstərdi ki, analar dünyaya 200-300 ildən bir elə oğullar gətirir ki, o oğullar zamana hökm oxuya bilir...

## 90-ların səhvini 2020-də düzəldən LİDER

Qarabağın işğalı 1990-cı ildə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat qruplaşmasının tarixin də, bu xalqın da bağışlamayacağı səhvi idi.

*Ardı Səh. 3*

# 270 illik zamanın axarını dəyişən 21 il

Əvvəli səh. 2

Vəzifədə qalmaq, kürsülərini qorumaq üçün rus imperiyasının son qalıqlarına satılan, torpaqlarımızı Ermənistana hədiyyə etməklə yerlərini möhkəmlətmək istəyən bir qruplaşmanın böyük səhvi idi. Bu, səhvdən də çox ağıla gəlməyən qəbahət idi. Satqınlıq, Vətənə xəyanət, millətə qarşı günah idi. Sən vəzifə üçün bir xalqın dədə-baba yurdunu, əzəli torpaqlarını necə sata bilərsən? Necə razılaşmaq olardı ki, erməni gecənin birində sənin soydaşının qapısında peyda olsun, onu silahın burnunda evindən çıxarıb qışın şaxtasında, ayazında yurdundan qovsun, insanlar yurdsuz, ev-eşiksiz qalsın, illərlə dişi-dırnağı ilə qurub-yaratdığı evini qoyub, dədə-baba ocağını tərk etsin. Nədir ki, sən vəzifədə qalasan, ağılsız olduğun halda hakimiyyəti zəbt edəsən.

Bəli, Qarabağ 90-cı illərin hakimiyyət vurğunlarının qurbanı olmuşdu. Minlərlə insanın ah-naləsini hələ də çiyinlərində daşıyan qruplaşmanın satqınlığının qurbanı olmuşdu. Bunu xalq sonradan bildi, AXC-Müsavat birliyinə etimadını itirdi. Onların hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Çünki gözlərinin qarşısında məcburi köçkünlükdə əzab çəkən minlərlə insan vardı. Azərbaycanın işğal olu-



soydaşlarımızın evlərinə daha tez qayıtmasına xidmət edir. Qarabağın inkişaf etdirilməsi, hər bir işğaldan azad edilmiş rayonumuzla bağlı Liderimizin fikirləri bu yurdların yaxın gələcəkdə böyük inkişafından xəbər verir. Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər isə nəinki xalqımızın, region dövlətlərinin də gələcək inkişafına hesablanmış addımdır. Ermənilər üçtərəfli 10 noyabr Bəyannaməsində üzərlərinə düşən öhdəliklərin icrasını gecikdirməyə çalışsalar da, bizim Liderimiz bütün məsələlərin həllinin öhdəsindən gələcəkdir. Çünki artıq dünyanın böyük ölkələri də bizi dinləyir, haqqın tərəfimizdə olduğunu anlayır.

Beləliklə, Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına qayıtması, Zəngəzur dəhlizinin açılması, Naxçıvan blokadasının yarılması kimi gündəmdə olan məsələlərimiz yaxın gələcəkdə öz müsbət həllini tapacaqdır. Çünki bütün bunların hər biri ayrı-ayrılıqda Prezidentimizin diqqətindədir və görülən işlər, aparılan danışıqlar müsbət yöndədir.

Azərbaycan xalqı inandığı, etibar etdiyi, arxalandığı və sevdiyi Lideri ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolçuluqda hər an Ümummilli Liderimiz Heydər Əliyevin və xalqımıza müzəffər sərkərdə





nan baş tacı Qarabağ vardı. Bir də bu işğala görə başını dik tuta bilməyən xalq vardı. Nə vaxt, harada Qarabağdan söz düşürdüsə, başımızı aşağı dikirdik. Utanırdıq torpaqlarımızın işğal altında olmasından. Bütün bunları isə xalqa onlar bəxş etmişdilər.

Cənab İlham Əliyev 90-ların səhvinin düzəldilməsi üçün uzun illər mübarizə apardı. 90-cı illərdə iqtisadi tənəzzülə uğrayan ölkənin bu vəziyyətini 1993-cü ildən etibarən aradan qaldıran, Azərbaycanda yeni Azərbaycan yaradan, bu qruplaşmanı xalqın yaxasından qoparıb atan Ümummilli Liderin gələcəyə hesablanmış inkişaf konsepsiyasını 2003-cü ildən uğurla davam etdirən dövlətimizin başçısı böyük zəhmət nəticəsində 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu.

Böyük itkilər verdiyimiz 44 gündə Zəfər qazandıq. Bu itkilərin də səbəbkarları onlardır-AXCP-Müsavat. Onların səhvləri düzəldilsə də, torpaqlarımız azad edilsə də, Böyük Qayıdış başlansa da, yaxın gələcəkdə soydaşlarımız tamamilə ata-baba yurdlarına qayıtsalar da, AXCP-Müsavat birləşməsinin üzvlərinin bu xalqa vurduqları maddi və mənəvi zərər heç vaxt unudulmayacaq.

## Azərbaycan gəncliyinə nümunə LİDER

Heydər Əliyev və Zərifə xanım Əliyevanın böyüdüb tərbiyə etdiyi övladı öncə ataanadan, ailədəki dəyərlərdən, sonra isə xalqın bu ailəyə etimadından, böyük Heydər Əliyevə nüfuzundan, onun mənəvi və siyasi varisinin Heydər Əliyev yolunu uğurla davam etdirəcəyinə böyük inamından aldığı güclə böyük Liderə çevrilə bildi. Xalq öz liderinin ətrafında sıx birləşdi. Müharibədə Prezidentimizin düşmənə göstərdiyi dəmir yumruğun rəmzi mənası var idi. Bu, bütün xalqın gücünü özündə toplayan bir yumruq idi. Düşmənin üzərinə endirilən birgə həmlə idi.

Xalqın birlik, həmrəylik nümayiş etdirməsi öz Liderinə inamından, arxalanmasından irəli gəlirdi. Gənclərimizin cəbhəyə axın etməsi, səfərbərlik məntəqələri qarşısında gecəli-gündüzlü Ali Baş Komandanın əmrini gözləməsi ötən 30 ilin əvvəlindəki hakimiyyət nümayəndələri ilə müqayisə belə edilə bilməyəcək bir Liderə sahib olmağımızın nəticələri idi.

Minlərlə gəncimizin böyük sərkərdənin bir əmri ilə döyüşə yollanması gənc nəslin dövlətinin başçısına etimadının göstəricisi idi. Hansı ki, Ermənistan tərəfdə vəziyyət heç də belə deyildi. Bu, baş nazir Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan tərəfindən də etiraf olundu. Onun söylədiyinə görə 2020-ci ildə 44 günlük müharibədə Ermənistan ordusunun təxminən 25%-i - 11 min nəfəri fərarilik edib, döyüşlərdən qaçıb. O, Paşinyanın və özünün könüllü cəbhəyə yollanmaq üçün erməni xalqına müraciətlərinə, çağırışlarına da cəmiyyətdən tutarlı reaksiya gəlmədiyini etiraf etdi. Başqa sözlə, erməni gəncləri Paşinyanın çağırışlarını cavabsız buraxıb - zorla ordu sıralarına cəlb edilənlər isə çıxış yolunu qaçmaqda görüb.

Bizim gənclərin vətənpərvərliyi isə cənab İlham Əliyevin fəaliyyəti dövründə Azərbaycanda yarada bildiyi ictimai mühitin bəhrələri idi. Vətəndaşına yanaşmasının, hər yaş qrupundan olan insanlara eyni qayğı göstərməsinin, gənclər üçün yaradılan hərtərəfli şəraitin, ən əsası isə onlara vətənpərvərliyin aşılanmasının nəticələri idi.

Bizim Prezidentimiz Azərbaycan gəncliyinə özü bir nümunə idi. Gənclik Liderimizin beynəlxalq kürsülərdə səsləndirdiyi fikirləri sosial şəbəkələrdə paylaşırdı. Liderimizin müharibə dövründə xarici mətbuat nümayəndələrinə verdiyi onlarla müsahibədəki qətiyyətli cavablar hər bir gəncin sosial şəbəkə manşetinə çevrilmişdi. Bu gün də elədir. Bu gün Azərbaycanda Prezidentimizin fəaliyyətini, dəyərli fikirlərini dərhal gənclərimizin sosial şəbəkələrdəki paylaşımlarında görmək olur. Bu, inamdır, arxalanmaq, etibar etməkdir. Bir də xalqın Liderinə sevgisidir. Bu sevgi isə düz sərhədlərimizə qədər uzanır. Ölkəmizin sərhədlərinin, ərazi bütövlüyünün qorunması üçün hər kəsin sinəsini sipər etməsini şərtləndirir.

## Xalqını xoşbəxt gələcəyə aparan LİDER

2023-cü ilin 20 sentyabrında Xankəndidə aparılan birgünlük lokal xarakterli antiterror əməliyyatı isə Azərbaycanın konstitusiya quruluşunun və ərazi bütövlüyünün təmin olunması ilə nəticələndi. Beləliklə, Azərbaycan bütövləşdi. Bu Zəfər 270 ilin Zəfəri oldu.

Bu gün Qarabağda yenidənqurma və bərpa işləri davam edir. Müharibədən dərhal sonra başlanan işlərin sürətlə aparılası bəxş edən Zərifə xanım Əliyevanın parlaq ruhları bizimlədir. Çünki ağsaqqal, ağbircək olan yerdə Allah var. Ata vəsiyyətini reallaşdıran və bunu Şuşanın alındığı gün Bakıda Şəhidlər Xiyabanında böyük qürurla söyləyən Prezidentimiz xalqımızın çoxəsrlik ailə dəyərlərini qoruması ilə də nümunə oldu.

Nə xoşdur ki, Qarabağımızı-torpaqlarımızı, şərəf və namusumuzu xilas edən LİDERİMİZ var. Nə xoşdur ki, övladlarımız hər addımı Liderləri və dostları cənab İlham Əliyevdən öyrənir. Öyrənirlər ki, onlar da əsl övlad, əsl vətəndaş ola bilsinlər. Öyrənirlər ki, zamanın 270 illik axarını dəyişən 21 ilin daha parlaq gələcəyində də dövlətimizin başçısının arxasınca gedə bilsinlər.

Artıq qarşıda yeni bir yol var. Bu yol bütövləşmiş Azərbaycanın müasir çağının inkişafına aparır. Dövlətimizin başçısının dediyi kimi: Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni, bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik. Ona görə gələcək inkişafla bağlı, əlbəttə ki, mənim fikirlərim var və bir çox hallarda onlar həlledici olacaq təbii ki. Ancaq mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni, bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır. Beləliklə, cənab Prezidentlə Bütöv Azərbaycan naminə yeni milli ideyalara doğru birgə addımlayaq: ölkəmizin bu milli ideyalara əsaslanan yeni dövrünü görmək üçün.

***Mətanət Məmmədova***

QIZIL TARİX

# Azərbaycan Sizin sözünüzü gözləyir!

## (Ziyalıların Heydər Əliyevə müraciəti)



*Möhtərəm Heydər bəy!*

Hamımız görürük ki, respublikamızın, xalqımızın vəziyyəti gündən-günə ağırlaşır. Azərbaycan sözün əsl mənasında siyasi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali Hakimiyyət və idarəetmə orqanları Konstitusiyaya zidd, "real vəziyyətə uyğun" fəaliyyət göstərməklə, əslində iflic vəziyyətinə düşmüşdür. Bir çox dövlət orqanları heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərir.

Bir sözlə, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur. Ən dəhşətlisi odur ki, siyasi və iqtisadi sistemdə əsaslı islahatlar aparılmır. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktında təsbit olunmuş hakimiyyət bölgüsü havadan asılı qalmış, hüquqi dövlətin yaradılması yolunda real addımlar atılmamışdır. İqtidarın idarəetmə səriştəsi, təcrübəsi, bacarığı olmayanda zora əl atması təbiidir. Qəribə burasındadır ki, prezidentdən tutmuş respublikanın müxtəlif vəzifəli şəxsləri dəfələrlə öz müsahibələrində bildiriblər ki, artıq hakimiyyəti bizim əlimizdən heç kəs ala bilməz, çünki ordu və polis bizə xidmət edir.

Dünənə kimi küçə, meydanlarda səhərdən axşama qədər demokratiyadan danışanlar görünür demokratiyanın mahiyyətinin nə olduğunu dərk etmirlər. Əsl demokratik ölkələrdə ordu, polis, başqa inzibati orqanlar siyasətdən kənardır və bütün bu qüvvələr hakimiyyətdə olanlara deyil, xalqa xidmət edirlər. Rəhbərliyin siyasi naşılığından, idarəetmə səriştəsizliyindən, hakimiyyət hərisliyindən həm daxildən, həm də xaricdən müəyyən qüvvələr öz mənafeləri üçün məharətlə istifadə edirlər. Əgər dünənə qədər Azərbaycanın sərvətləri bir istiqamətə daşınıb aparılırdısa, indi var-dövlətimiz bir neçə səmtə axıdılır. Bir sıra Şərq ölkələrindən qovulmuş Qərb inhisarları indi asanlıqla çoxdan həsrətində olduqları Bakı neftini ələ keçirirlər. Belə gedərsə biz siyasi əsarətdən qurtarmamış, tezliklə iqtisadi əsarətə məruz qalacağıq. Çünki respublikanın olan-qalan iqtisadi potensialı sürətlə dağılır, təbii sərvətlərimiz talan edilir.

Vəziyyətin ağırlığından, çıxılmazlığından, həyatın qeyri-sabitliyindən, gələcəyə ümidsizlikdən respublikanı yüzlərlə ziyalı - yüksək ixtisaslı kadrlar tərk edir. Sözsüz ki, ən ağır zərbə geniş xalq kütləsinə, aşağı təbəqəyə dəyir. Hadisələrin bu cür inkişafı göstərir ki, yaxın gələcəkdə sosial ədalətdən heç əsər-əlamət də qalmayacaq. Halbuki uzun illər boyu imperiya boyunduruğu və totalitar rejim altında inləyən xalqımız bu gün demokratik qanunlara əsaslanan vətəndaş cəmiyyəti qurmaq arzusu ilə yaşayır.

Yaşadığımız dövrün səciyyəvi cəhətlərinin, cəmiyyətin inkişaf meyillərinin iqtidar tərəfindən düzgün qiymətləndirilməməsi, fərsiz kadr siyasəti, idarəetmə səriştəsi olmayan təsadüfi adamların dövlət strukturlarında yüksək vəzifələrə təyin edilməsi, respublikamızın onsuz da ağır olan durumunu daha da dərinləşdirir.

Xalqımıza qarşı törədilən ən böyük dəhşətli cinayətləri - 20 Yanvar, Xocalı, Şuşa, Laçın və digər faciələri törədənlər hələ cəzalarına çatmayıblar. Axırı görünməyən, minlərlə insan ömrü aparan, saysız-hesabsız ailələri doğma yurdlarından didərgin salan Qarabağ fitnəkarlığı bir çoxları üçün siyasi oyunbazlığa, məqam, vəzifə qamarlamaq girəvəsinə, qazanc mənbəyinə dönübdür. Azərbaycanda "sürətli artım" ancaq yeni-yeni partiyaların və onların liderlərinin meydana çıxması sahəsindədir. Bu siyasi partiyaların sayı gündən-günə çoxalsa da, respublikada ictimai-siyasi həmrəylik yaratmaq yolunda əməli iş görülmür, siyasi vakuum mövcuddur. Çünki bu siyasi partiyaların rəhbərləri arasında, sözün əsl mənasında, geniş xalq kütləsinin dərin inam və etimadını qazanmış, ən müxtəlif zümrələrdən olan adamları birləşdirə biləcək beynəlxalq nüfuzlu və respublika həyatının bütün sahələrindən tam, geniş məlumatı olan güclü lider yoxdur.



### Möhtərəm HEYDƏR BƏY!

İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bu günü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu partiyanın mövqeyində dayanacaqlar. Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar.

Siz bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını da məhz öz şəxsi nüfuzunuz və uzaqgörən diplomatik səriştənizlə qoruyub saxlayır və idarə edirsiniz. Bütün çətinliklərə baxmayaraq, hələ Baltik respublikalarında belə qalan rus ordusunun Naxçıvandakı hissələrini Siz çox bacarıqla, qayda-qanunla yola saldınız. Qardaş Türkiyə və İranın köməyi ilə Naxçıvan əhalisini dözülməz vəziyyətdən çıxarırsınız. İstərdik ki, bu işləri bütün Azərbaycan üçün görəsiniz.

### HEYDƏR BƏY!

Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bunu bir qrup ziyalılar adından biz edirik. Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir.

### HÖRMƏT VƏ EHTİRAMLA:

Azərbaycan Respublikası EA-nın akademikləri - Ziya Bünyadov, Fərəməz Maqsudov,

Heykəltəraşlıq Akademiyasının akademiki - Ömər Eldarov, Azərbaycan EA-nın müxbir üzvləri - İqrar Əliyev, Kərim Kərimov, Məmmədtağı Cəfərov, Sabir Hacıyev; Xəlil Rza Ulutürk - xalq şairi; Sirus Təbrizli - yazıçı - publisist;

Azərbaycan Respublikamızın xalq deputatları - Xeynəb Xanlarova, xalq artisti, Əli Ömərov, Eldar İbrahimov, Mixail Zabelin, Əlfəddin Abdullayev;

Professorlar - Murtuz Ələsgərov - əməkdar hüquqşünas, Əkbər Bayramov - əməkdar elm xadimi, Zahid Qaralov - əməkdar müəllim, Həsən Quliyev, Adil Qasımov, Əjdər İsmayılov, Fikrət İsmayılov, respublika Dövlət mükafatı laureatı, Şahlar Əsgərov, Mübariz Əhmədov, Əli Nuriyev, Ədalət Fərəcov, Həsən Mirzəyev, Zahid Xəlilov, Vilayət Əliyev, Abbas Səmədov, Ağababa Mahmudov, Şəmistan Mikayılov, Səfyar Musayev, Əsədulla Qurbanov, Musa İlyasov, Tələt Qayıbov, Məmməd Məmmədov, Rafiq Əmənzadə, Lalə Hacıyeva, Eldar Abbasov, Əli İnsanov, Fuad İsmayılov, Əlişir Musayev, Hüsü Kərimov, Rafiq Məmmədhəsənov, Məmməd Nəsirov, İbrahim İsayev, Faiq Cəfərov, Sudeyf İmamverdiyev, Liliya Luqovaya, dosent, əməkdar həkim;

Elmlər doktorları - Hacıbala Abutalıbov, Novruz Quliyev, Əmir Mərdanov;

Dosentlər - Sabir Xəlilov, Pənah Mahmudov, İsgəndər Quliyev, Zakir Sərdarov, Əli Əhmədov, Əli Nağıyev, Maqsud Nəcəfov, Heydər Hüseynov, Nəbi Əsgərov, Allahverdi Hacıyev, Tofiq Hüseynov, Məmməd Məmmədov, Musa Heydərov;

Hacı Hacıyev - elmlər namizədi, "Qaraçöp" xeyriyyə cəmiyyətinin sədri;

Elmlər namizədləri - Nəzir Əhmədov, Allahyar Hüseynov, İbrahim Əzizov, Aydın Əhmədzadə, Vidadi Acalov, Səbirə Dünyamalıyeva;

Georgi Savoskin, "Sodrujestvo" cəmiyyətinin üzvü, Lyudviq Muradov, "Azərbaycan-Rusiya" cəmiyyətinin məsul katibi, Rəfael Allahverdiyev, "Azərbaycan-Rusiya" cəmiyyətinin vitse-prezidenti, Asif Cahangirov, BXTŞ-nin müdiri, Rafiq Qasımov, "Azərelektroterm"in baş direktor müavini, Kərim Kərimov, Bakı Kondisioner zavodunun şöbə müdiri, Munis Bayramov, Azərbaycan "Əlillər" cəmiyyəti sədrinin köməkçisi, Möhsün Möhsünov, yazıçı, jurnalist, Ağabəy Əsgərov, elmlər namizədi, "Səs" qəzetinin baş redaktoru,

Vüqar Rəhimzadə, "İki sahil" qəzetinin baş redaktoru, Rizvan Cəbiyev, "Naxçıvan" qəzetinin baş redaktoru, Ariz Abduləliyev, "Axtarış" qəzetinin baş redaktoru, Əziz Axundov, "Gənc müəllim" qəzetinin redaktoru, Mirzə Əsgərov, "Real" agentliyinin direktoru, Xeyrəddin Qoca, "Açıq söz" qəzetinin redaktor müavini, jurnalistlər - Səlahəddin Quliyev, Ziya Paşa, Vüqar İsmayılov, Tahir Məmmədov.

***"SƏS" qəzeti, 16 oktyabr 1992-ci il, № 43 (72)***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ICESCO-nun qərargahında olub













***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva İslam dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Mərakeşin Rabat şəhərində yerləşən qərargahında olub. Oktyabrın 14-də ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Maliklə görüşdə Heydər Əliyev Fondunun fəaliyyəti, Azərbaycan-ICESCO əməkdaşlığı, o cümlədən Fond ilə birgə layihələr müzakirə edilib.***

AZƏRTAC xəbər verir ki, noyabr ayında ölkəmizdə keçiriləcək COP29 çərçivəsində Fond və ICESCO arasındakı əməkdaşlıq, təşkilatın COP29-da pavilyonla təmsil olunması ilə bağlı məsələlər diqqət mərkəzində olub.

Görüşdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsisçisi və rəhbəri olduğu IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən ekoloji layihələr barədə də məlumat verilib. Ətraf mühitin qorunması sahəsində ICESCO ilə Heydər Əliyev Fondunun gələcək əməkdaşlığı nəzərdən keçirilib.

Daha sonra Heydər Əliyev Fondu ilə ICESCO arasında Burkina-Fasoda məcburi köçkün qızlar və internat evləri üçün təhsil və sosial dəstək layihəsi üzrə əməkdaşlıq sazişi imzalanıb. Sənədi Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik imzalayıblar. Layihənin məqsədi qız tələbələri lazımi resurslar, mentorluq və təhlükəsiz, dəstəkləyici mühitlə təmin etməkdir. Bu isə keyfiyyətli təhsilə çıxış, həyat bacarıqları təlimi və emosional dəstək, şəxsi inkişafı və dayanıqlığı təşviq etmək kimi məsələlərin həlli deməkdir. Layihə çərçivəsində seminarların təşkili, məktəblərdə kompüter siniflərinin və kitabxanaların yaradılması da nəzərdə tutulur. 2025-ci ilin oktyabr ayınadək davam edəcək layihə Burkina-Fasonun bir sıra şəhərlərini əhatə edəcək.

Nümayəndə heyəti daha sonra ICESCO-nun Rabatdakı qərargahında yaradılan Peyğəmbər və İslam Sivilizasiyası Muzeyini ziyarət edib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

Azərbaycan 50-dən çox müsəlman dövlətinin təmsil olunduğu nüfuzlu beynəlxalq mədəni-humanitar qurum olan İslam dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) 1991-ci ildən üzvüdür. Həmin vaxtdan qurulmuş münasibətlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın 2006-cı ildə ICESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə daha da genişlənib.

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə ICESCO arasında da sıx əməkdaşlıq mövcuddur. Təhsil, mədəniyyət, səhiyyənin inkişafı məsələlərini prioritet kimi qəbul edən Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlər və reallaşdırdığı layihələr ICESCO-nun əsas fəaliyyət istiqamətləri ilə uzlaşdığından iki qurum bir çox sahədə əlaqələrini daha da genişləndirir.

2024-cü il üzrə İslam dünyasının mədəniyyət paytaxtı seçilən Şuşada bu ilin may ayında Heydər Əliyev Fondu və ICESCO arasında mədəniyyət, elm və təhsil, yeni texnologiyaların inkişafı sahələrində təcrübə mübadiləsinin aparılmasını, eyni zamanda, birgə layihələrin icra olunmasını nəzərdə tutan əməkdaşlığa dair imzalanan memorandum da əlaqələrin genişləndirilməsi istiqamətində növbəti addım kimi dəyərləndirilə bilər.



# Azərbaycanın Baş naziri ilə Rusiya Hökumətinin sədri arasında telefon danışığı olub

Oktyabrın 15-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Hökumətinin sədri Mixail Mişustinə zəng edib. Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, hökumət başçıları Azərbaycan-Rusiya strateji tərəfdaşlığının aktual məsələlərini nəzərdən keçirib, qarşılıqlı faydalı əməkdaşlığın gələcək inkişafı perspektivlərini müzakirə ediblər. Tərəflər ikitərəfli gündəliyin bütün məsələləri üzrə birgə fəal işin davam etdirilməsinə qarşılıqlı surətdə hazır olduqlarını təsdiq ediblər.

# 16 oktyabr 2020-ci il: QƏLƏBƏDƏN-QƏLƏBƏYƏ

## Prezident İlham Əliyev: "Azərbaycan vətəndaşları öz torpağında qürurla yaşayırlar"

**“Azərbaycan Ordusu Xocavənd rayonunun daha üç kəndini işğaldan azad edib. Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!” Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 16 oktyabr 2020-ci il tarixində özünün rəsmi ”Twitter” səhifəsində yazırdı.**

Həmin gün Türkiyənin ”A Haber” televiziya kanalına müsahibə verən Azərbaycan Prezidenti Ermənistanın təxribatlara əl ataraq terror aktları törətdiyini bildirirdi: ” əTəəssüf ki, mülki şəxslər arasında insan itkisi davam edir, artıq 47 nəfər oldu və 222 mülki şəxs yaralandı, 2 minə yaxın ev ya tamamilə dağıldı, ya da ki, böyük ziyan gördü. Mən bunu demişdim, biz bu insanların qisasını döyüş meydanında alacağıq. Biz heç zaman mülki şəxslərə qarşı atəş açmamışıq, bu gün də açmırıq, baxmayaraq ki, Gəncəyə, Tərtərə hücumlar oldu. Bu gün səhər saat 6-dan 8-ə qədər, - indi saat 9:10-dur, - Tərtər, Ağdam, Goranboy və digər rayonlara 220-dən çox mərmi düşüb. Yəni, bu namərd hücumlar davam edir. Onların əsas hədəfi mülki şəxsləri öldürmək, Azərbaycan əhalisi arasında panika, qorxu yaratmaq, bizi dayandırmaq və öz çirkin niyyətlərinə çatmaqdır. Ancaq görürlər ki, bu, alınmır və nə qədər mərmi düşürsədüşsün Azərbaycan vətəndaşları öz torpağında qürurla yaşayırlar və bütün bu çətinliklərə dözürlər. Onları birləşdirən bir amal var - Qarabağın qaytarılması, Azərbaycan bayrağının işğal edilmiş bütün torpaqlarda qaldırılması və ərazi bütövlüyümüzün bərpa edilməsidir”. 44 günlük vətən müharibəsində insanlar bu amal ilə yaşadılar və Zəfər günə qədər qələbə soranları onları tərk etmədi. Hər gün QƏLƏBƏ!!!

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının ərazilərini atəşə tutmaqda davam edirdi.

Azərbaycanın yaşayış məntəqələrinə raket zərbələri endirilməsi Ermənistan rəhbərliyinin siyasi və hərbi acizliyinə dəlalət edirdi. Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatının uğurlu olması açıq-aşkar görünürdü.

Azərbaycan hərbçiləri işğal altında olan əraziləri ”addım-addım” azad edirdi.

Oktyabrın 15-i gün ərzində və 16-na keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində əməliyyat şəraiti yenə də gərgin olaraq qalırdı. Düşmən işğaldan azad edilmiş Cəbrayıl və Hadrut istiqamətlərindəki bölmələrimizin mövqelərini və cəbhə xəttinə yaxın kəndləri dünən gün ərzində raket, artilleriya və minaatanlardan atəşə tuturdu.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyət nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 ”Qrad” YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 ”Şilka” özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 avtomobil texnikası məhv edilib və sıradan çıxarılmışdı. Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında hərbi qulluqçular və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər arasında kütləvi şəkildə fərarilik halı qeydə alınmışdı.

### “MƏN PREZİDENTİMİ SEVİRƏM!”

Həmin zamanlarda Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident, Ali Baş Komandan İlham Əliyevə məktublar yazmaqda davam edirdilər. Məktublarda Azərbaycan Prezidenti başda olmaqla, şanlı Ordumuzun qazandığı zəfərlərə görə təşəkkürlər edilirdi. Bakı şəhər sakini İntizam Məmmədov yazırdı: ”Hörmətli Prezidentimiz, mən Ordumuzun qələbələrinə çox sevinirəm. Anam isə sevincindən ağlayır. Əziz Prezidentimiz, mən də əsgər olmaq istəyirəm. 12 yaşında olmağıma baxmayaraq, mən də ön cəbhəyə getmək, Vətən uğrunda döyüşmək istəyirəm. Şəhidlərimiz tarixə düşür, mən də tarixə düşmək istəyirəm. Vətənimi, Azərbaycanı anam qədər sevirəm. Qardaşlarımı vuruşan görəndə, mən də onların yanında olub, kömək etmək istəyirəm. Bunun üçün mən balaca deyiləm. Erməniləri Sizin dediyiniz kimi, ”iti qovan kimi” qovmaq istəyirəm. Mən Vətənimi sevirəm! Mən torpağımı sevirəm! Mən Prezidentimi sevirəm!”. Başqa bir məktubda isə belə yazılırdı: ”Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə qüdrətli Ordumuzun işğal olunmuş torpaqlarımızı azad etməsi xəbərləri bütün vətəndaşlar kimi biz ruhanilərin də böyük sevincinə səbəb oldu. Rəşadətli Ordumuzun bu minvalla Şuşada üçrəngli bayrağımızı dalğalandıracağı gün çox yaxındadır. Cənab Prezident, ehtiyac yaranarsa, biz ruhanilər də müqəddəs torpaqlarımızın mənfur düşmənin tapdağından azad edilməsi uğrunda canımızla, qanımızla döyüşməyə hazırıq. Sizin kimi Ali Baş Komandanımız olduğuna görə fəxr edirik. Bu haqq işimizdə Allah Sizi, millətimizi və dövlətimizi qorusun!”.



”Azad edilmiş torpaqları hesablamaq o qədər də çətin məsələ deyil, halbuki hər gün bu, dəyişir. Dünən mən yeni altı kəndin işğaldan azad edilməsi xəbərini Azərbaycan xalqına çatdırdım. Ondan əvvəlki gündə daha çox sayda kəndlər azad edildi. Bu proses davam edir. Demək olar ki, hər gün biz yeni əraziləri işğaldan azad edirik, hər gün yeni strateji yüksəklikləri azad edirik. Ona görə bu rəqəmlər dəyişir. Ancaq bu gün rəsmi qaydada verilən məlumat deməyə əsas verir ki, hansı bölgələr azad edildi.

İndi bu xəritədə, misal üçün, Hadrut yoxdur. Artıq Hadrut bizdədir. Füzulinin ətrafında kəndlərin mütləq əksəriyyəti bizdədir. Artıq Füzuli bizim gözümüzün qabağındadır. Ondan sonra cənub istiqamətində də irəliləmişik. Şimalda Murovdağ mövqeləri bizdədir, Suqovuşan bizdədir. Yəni, bütün istiqamətlər üzrə böyük uğurlar əldə etdik və bu proses davam edir. Hesab edirəm və əminəm ki, Azərbaycan xalqı bunu diqqətlə izləyir. Xüsusilə o kəndlərin sakinləri ki, o kəndlər işğaldan azad edilir, onlar üçün əlbəttə, bu, tarixi günlərdir”, - deyə Prezident müsahibəsində bildirmişdir.

### “SİNƏSİNİ QABAĞA VERƏRƏK, HEÇ NƏDƏN QORXMAYARAQ, ƏLİNDƏ BAYRAQ, ƏLİNDƏ SİLAH DÜŞMƏNİ QOVAN DA ƏSGƏRDİR”

Dünyanı öz qüdrəti ilə təəccübləndirən Azərbaycan tarixdə misli görünməmiş bir tarix yazdı. Azərbaycan xalqı şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Dünyaya, düşmənə məğrur və yenilməz xalq olduğunu göstərən Azərbaycan Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək işğala son qoydu. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti və ”Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur”, - deməsi böyük bir Zəfər tariximizə çevrildi. Bu tarix bu günün və gələcəyin nəsillərinə iftixar yaradan bir gün oldu. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndini, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini işğaldan azad etdi. Eləcə də Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklərimiz erməni işğalçılarından azad olundu. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətli siyasi iradəsini ortaya qoymuş oldu. Prezident İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibəsində ölkəmizin haqq mövqeyini dünyaya çatdırmış oldu.

Azərbaycan xalqının torpaq uğurunda savaşı və sonda qələbə tarixinin yazılması ilə nəticələnən 44 günlük müharibə Azərbaycan ordusunun Vətən Müharibəsindəki hünərindən, qəhrəmanamığından qaynaqlanırdı. Sanki hadisələr xronoloji ardıcıllıqla davam edirdi. Beləliklə, Zəfər tariximiz yazıldı. Bu sevincləri yaşadan Azərbaycan əsgəri qəhrəmanlıq simvoluna çevrildi. Döyüşdən qorxub qaçan erməni Azərbaycan əsgəri qarşısında məğlub olduğunu dünyaya göstərdi. ”Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik”, - deyə bildirən Cənab Prezident torpaqlarımızı ancaq Azərbaycan əsgərinin, Azərbaycan zabitinin azad etdiyini qeyd edirdi: ”Sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir”. Əlbəttə ki, Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi bu qələbənin qazanılmasında mühüm rol oynadı”.

### “8 NOYABRDA ERMƏNİ ORDUSU ARTIQ TƏSLİM OLMUŞDU”

Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamla hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir. Cənab Prezidentin bildirdiyi kimi, ”Noyabrın 9-da artıq Ermənistan tərəfi də öz məğlubiyyətini qəbul edib, etiraf edib, bu məğlubiyyətlə barışıb və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Biz isə Zəfər gününü məhz 8 Noyabr tarixində qeyd edirik. Çünki 8 noyabrda erməni ordusu artıq təslim olmuşdu”.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Azərbaycanın güclü ordusu, yenilməz ordusu bu tarixi bizlərə yaşatdı.

Təbii ki, bu uğurlu yolda neçə - neçə oğullarımız canlarından keçdi, şəhidlik zirvəsinə yüksəldilər. Onların qarşısında baş əyirik və Azərbaycan xalqı hər zaman onların xatirəsini yad edəcək. Belə oğulların keçdiyi yollar ərənlik məktəbi olaraq öyrənilir. ”Bu gün bu şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik”, - deyən dövlət başçısı bildirib ki, şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq:”Azərbaycan xalqı, indiki nəsil və gələcək nəsillər həmişə şəhidlərimizlə fəxr edəcək”.

Bu gün işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə başlanılıb. Dövlət başçısı bildirib ki, bu tarixi Zəfərdən sonra ölkəmizin yeniləşməsi, müasirləşməsi, aparılan islahatlar, xoşagəlməz hallarla mübarizə, əlbəttə, tam yeni müstəviyə çıxmalıdır.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan-ICESCO əməkdaşlığında yeni mərhələ

Dünya təşkilatları ilə əməkdaşlıq və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. Müxtəlif sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın yaranmasına və davamlı olmasına öz təsirini göstərir. Azərbaycanın İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan İSESKO ilə də münasibətləri də möhkəm təmələ əsaslanır. 1979-cu ildə təşkil edilmiş İSESKO ilə Azərbaycan dövləti yaxından əməkdaşlıq edir və dünyada mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. Bakı şəhərinin 2009-cu il üçün İslamın paytaxtı, eləcə də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması İSESKO-Azərbaycan münasibətlərini bir daha aydın göstərir. İSESKO rəhbərliyinin təşkilatçılığı ilə görkəmli şərqşünas alim Aida İmanquliyevanın "Müasir ərəb ədəbiyyatının korifeyləri" əsəri və "Ərəb hərfləri ilə Azərbaycan yazısı" kitabı ərəb dilində çap edilmişdir. İSESKO-nun aylıq xüsusi jurnalında Azərbaycan ilə əlaqələrə həmişə geniş yer ayrılması, 2008-ci ildə Mərakeşdə Azərbaycan mədəniyyət günlərinin keçirilməsində İSESKO rəhbərliyinin göstərdiyi hərtərəfli dəstək davamlı əlaqələrin mövcudluğundan xəbər verir. Təşkilatın rəhbəri 2006-cı ildən etibarən respublikamızda keçirilmiş bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə fəal iştirak etmişdir. Bu sırada Bakıda keçirilmiş "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfrans, Heydər Əliyev Fondunun təşəbbüsü, UNESKO və İSESKO-nun dəstəyi ilə keçirilmiş "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda forum, "Bakı - İslam mədəniyyətinin paytaxtı - 2009" mədəniyyət ilinin açılış mərasimi, İslam ölkələri mədəniyyət nazirlərinin VI konfransı, Dünya Dini Liderlərinin Bakı Sammiti və Ümumdünya Mədəniyyətlərarası Dialoq və digər tədbirlərin adlarını qeyd etmək yerinə düşər. 2-3 dekabr 2019-cu il tarixlərində İSESCO-nun Baş qərargahında keçirilmiş İslam Dünyası İrsi Komitəsinin növbədənkənar toplantısında Azərbaycan mədəni irs nümunələri - Bakının İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı İslam Dünyası İrsi Siyahısına daxil edilmişdir. İSESKO tərəfindən qəbul edilmiş qərarlarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı maddələr də öz əksini tapmışdır. Hazırda Azərbaycan təşkilatın fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində aktiv iştirak edir. Təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir. Ölkəmizin müsəlman dünyası ilə əlaqələrinin genişlənməsi prosesi son dövrlər daha intensiv xarakter almışdır. İslam həmrəyliyinin gücləndirilməsi məqsədi ilə Azərbaycan dövləti ardıcıl olaraq siyasət yürüdür. Bildiyimiz kimi, Azərbaycan 2017-ci ildə "İslam Həmrəyliyi Oyunları"nı qəbul etdi, Ölkəmizdə Cənab İlham Əliyevin Sərəncamı ilə "İslam Həmrəyliyi İli" elan olundu. Bu, islam ölkələrinin birliyinə verilən ən böyük töhfə oldu. Bildiyimiz kimi, İslam Konfransı Təşkilatının üzvü və ya müşahidəçisi olmayan ölkə ISESCO-nun üzvlüyünə iddia edə bilməz. Bu baxımdan müstəqil Azərbaycan "İslam dünyasının BMT - si" adlandırılan İslam Əməkdaşlıq Təşkilatın da fəal üzvüdür.

## MƏCBURİ KÖÇKÜN QIZLAR VƏ İNTERNAT EVLƏRİ ÜÇÜN TƏHSİL VƏ SOSİAL DƏSTƏK LAYİHƏSİ ÜZRƏ ƏMƏKDAŞLIQ SAZİŞİ

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva İslam dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Mərakeşin Rabat şəhərində yerləşən qərargahında olub. Oktyabrın 14-də ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malikla görüşdə Heydər Əliyev Fondunun fəaliyyəti, Azərbaycan-ICESCO əməkdaşlığı, o cümlədən Fond ilə birgə layihələr müzakirə edilib. Noyabr ayında ölkəmizdə keçiriləcək COP29 çərçivəsində Fond və ICESCO arasındakı əməkdaşlıq, təşkilatın COP29-da pavilyonla təmsil olunması ilə bağlı məsələlər diqqət mərkəzində olub.

Görüşdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsisçisi və rəhbəri olduğu IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən ekoloji layihələr barədə də məlumat verilib. Ətraf mühitin qorunması sahəsində ICESCO ilə Heydər Əliyev Fondunun gələcək əməkdaşlığı nəzərdən keçirilib. Daha sonra Heydər Əliyev Fondu ilə ICESCO arasında Burkina-Fasoda məcburi köçkün qızlar və internat evləri üçün təhsil və sosial dəstək layihəsi üzrə əməkdaşlıq sazişi imzalanıb. Layihənin məqsədi qız tələbələri lazımi resurslar, mentorluq və təhlükəsiz, dəstəkləyici mühitlə təmin etməkdir. Bu isə keyfiyyətli təhsilə çıxış, həyat bacarıqları təlimi və emosional dəstək, şəxsi inkişafı və dayanıqlığı təşviq etmək kimi məsələlərin həlli deməkdir. Layihə çərçivəsində seminarların təşkili, məktəblərdə kompüter siniflərinin və kitabxanaların yaradılması da nəzərdə tutulur. 2025-ci ilin oktyabr ayınadək davam edəcək layihə Burkina-Fasonun bir sıra şəhərlərini əhatə edəcək.

Nümayəndə heyəti daha sonra ICESCO-nun Rabatdakı qərargahında yaradılan Peyğəmbər və İslam Sivilizasiyası Muzeyini ziyarət edib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

Azərbaycan 50-dən çox müsəlman dövlətinin təmsil olunduğu nüfuzlu beynəlxalq mədəni-humanitar qurum olan İslam dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) 1991-ci ildən üzvüdür. Həmin vaxtdan qurulmuş münasibətlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın 2006-cı ildə ICESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə daha da genişlənib. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə ISESCO arasında da sıx əməkdaşlıq mövcuddur. Təhsil, mədəniyyət, səhiyyənin inkişafı məsələlərini prioritet kimi qəbul edən Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlər və reallaşdırdığı layihələr ISESCO-nun əsas fəaliyyət istiqamətləri ilə uzlaşdığından iki qurum bir çox sahədə əlaqələrini daha da genişləndirir. 2024-cü il üzrə İslam dünyasının mədəniyyət paytaxtı seçilən Şuşada bu ilin may ayında Heydər Əliyev Fondu və ICESCO arasında mədəniyyət, elm və təhsil, yeni texnologiyaların inkişafı sahələrində təcrübə mübadiləsinin aparılmasını, eyni zamanda, birgə layihələrin icra olunmasını nəzərdə tutan əməkdaşlığa dair imzalanan memorandum da əlaqələrin genişləndirilməsi istiqamətində növbəti addım kimi dəyərləndirilə bilər.

## İSLAMİ DƏYƏRLƏR MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN AYRILMAZ HİSSƏSİDİR

Bəşər tarixində yeni və ən mütərəqqi bir səhifə olan İslam mədəniyyəti cəmiyyətdə misli olmayan dəyişiklikləri yaratmış oldu. İslam dini yüksək əxlaqi dəyərləri, ədaləti, bərabərliyi, sülhü təbliğ edən dindir. Bu gün dünyada gedən ikili standartlara, İslama qarşı qarayaxma kampaniyalarına baxmayaraq İslam öz dəyərlərini qoruyub saxlayıb və inkişaf etdirir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Qafqazda İslamın yayılması və inkişaf etməsi Azərbaycandan başlayır. İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik gətiribdir, inkişaf, İslami dəyərlər gətiribdir. Bu dəyərlər - müqəddəs kitabımız Qurani-Kərimdən gələn İslami dəyərlər Qafqaz xalqlarının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir".

Bu gün Azərbaycan dünya ölkələri üçün dini tolerantlıq nümunəsinə çevrilib. Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə də olan münasibəti əməli fəaliyyətdə aydın görünür. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən, dini ocaqlara - məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin və vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Bu gün Azərbaycan dünyəvi, müasir dövlət olmaqla yanaşı, milli dəyərlərə və adət-ənələrinə böyük hörmətlə yanaşan bir ölkədir. Ölkəmizdə din-dövlət münasibətləri formalaşıb.

## "ŞUŞA - İSLAM DÜNYASININ MƏDƏNİYYƏT PAYTAXTI 2024"

Azərbaycan müsəlman ölkələri ilə dostluq və qardaşlıq əlaqələrinə malikdir və bütün müsəlman ölkələri ilə sıx əlaqələr quraraq beynəlxalq müstəvidə bir-birini daim dəstəkləyirlər. Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi islam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verir. Şuşanın 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi şəhərin İslam sivilizasiyasının mərkəzlərindən biri kimi təqdimində mühüm rol oynayır. Cari ilin mayın 11-də Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasiminin keçirilməsi Şuşanın daş yaddaşına hopan bir tarix kimi ədəbiləşdi.

Şuşa şəhəri nəinki Azərbaycanın, türk dünyasının, islam dünyasının eləcə də bütün dünyanın mədəniyyət paytaxtı elan olunmağa layiqdir. Milli-mənəvi dəyərlərinin beşiyi kimi tanınan Şuşa əsrlərin sınağından çıxaraq yüzilliklərin daş yaddaşına tarix yazıb. Bu tarix Şuşa haqqında olan bütün məlumatları özündə əks etdirib. Zəngin və şanlı tarixi keçmişə malik olan Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən, məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" elan olunması islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və İslam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində özünəməxsus rol oynayır.

## AZƏRBAYCANIN HAQQ İŞİNƏ DƏSTƏK

Hazırda Azərbaycan təşkilatın fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində aktiv iştirak edir. Təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir. Hələ müstəqilliyimizin ilk illərində erməni təcavüzünə məruz qalmış, informasiya-təbliğat imkanları zəif və məhdud olan Azərbaycanın haqlı mövqeyinin İslam dövlətləri tərəfindən dəstəklənməsi və onun vasitəsilə təcavüzün ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rolu qeyd edilməlidir. İƏT Azərbaycan və Ermənistan arasında münaqişənin həll olunması ilə bağlı Azərbaycana davamlı dəstək göstərib. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan torpaqlarının 20 faizinin qonşu Ermənistan tərəfindən işğalı ilə nəticələnmiş münaqişənin həlli ilə bağlı bir neçə qətnamə qəbul etmişdir. Rəsmi Yerevanın tutduğu qeyri-konstruktiv mövqeyini diqqətdə saxlayaraq İƏT Xarici İşlər Nazirlərinin Şurası tərəfindən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü", "Azərbaycana iqtisadi yardımın göstərilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında İslam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılması və təhqir olunması" adlı qətnamələr qəbul etmişdi. İƏT Azərbaycanın haqq işini hər zaman dəstəkləyib və bu, təşkilat üçün prioritet olaraq qalır.

## ÇOXMƏDƏNİYYƏTLİ HARMONİYANIN İNKİŞAFINA TƏKAN

Azərbaycan İslam dünyasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, dünyada sülhün və təhlükəsizliyin təşviqi sahəsində böyük səylər göstərən mühüm təşkilatlardan olan ICESCO ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir.

Təsadüfi deyil ki, məhz Azərbaycan dünyanın tolerant mərkəzlərindən birinə çevrilib. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dialoqlar, mədəniyyətlərarası dialoq, humanitar forum, dünya dinlərinin liderlərinin zirvə görüşləri - bütün bunlar bu gün Azərbaycan reallıqlarıdır. Cənab Prezident çıxışlarının birində vurğulayıb: "Biz çalışırıq bu tədbirlərin keçirilməsi ilə ümumi işimizə töhfəmizi verək ki, dünyada da dini, milli zəmində heç vaxt anlaşılmazlıq və qarşıdurma olmasın. Əfsuslar olsun ki, biz bir çox hallarda bunun əksini görürük. Yaxın Şərqdə, Avropada, digər yerlərdə dini amil əsasında müharibələr, davalar və qanlı toqquşmalar baş verir. Bu, əlbəttə ki, bizi çox narahat edir. Yenə də deyirəm, ümid edirəm ki, Azərbaycan öz müsbət təcrübəsini başqa ölkələrlə bölüşərək, ümumbəşəri dəyərlərə qiymətli töhfəsini verir və verəcəkdir".

Qətiyyətlə deyə bilərik ki, müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin və etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycan uğurlu bir inkişaf yolundadır. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# YAP-ın yaranması ilə Azərbaycanın inkişafının təməli qoyuldu

## "Səs" qəzeti vasitəsi ilə ziyalıların müraciəti və müraciətə Ulu Öndər Heydər Əliyevin cavabı Azərbaycan tarixinin önəmli səhifəsidir

Cəmiyyətin bütün təbəqələrini özündə birləşdirən Yeni Azərbaycan Partiyası bu gün kəmiyyət və keyfiyyət baxımından Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Xalqın partiyası olan Yeni Azərbaycan Partiyası 32 ildir ki, Azərbaycan dövlətinin qurucusu və memarı olan Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasətə sadiq qalaraq xalqın sosial -rifah halının daha da yaxşılaşmasına və müstəqil dövlətçiliyimizin tərəqqisinə mühüm töhfələr verir. Söz yox ki, qazanılan nailiyyətlər, əldə olunan möhtəşəm uğurlar çətin, keşməkeşli yol qət etməklə nail olunub. Yəni Azərbaycan Respublikası Ali Soveti 1991-ci il 18 oktyabr tarixli sessiyasında "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul edib, müstəqil dövlət quruculuğu yoluna qədəm qoyulsa da çox ağır , üzücü problemlərlə üzləşməli oldu. Hətta vəziyyətin son dərəcə ağır olması səbəbindən dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Hakimiyyəti zəbt etmiş qüvvələr problemləri həll etmək gücünə və imkanına malik deyildilər. Çünki onlar siyasi baxımından təcrübəsiz, dövlət idarəçiliyində isə heç bir anlayışları olmayan şəxslər idilər. Vəziyyətin ağır olmasından istifadə edən erməni hərbi birləşmələri bir sıra ölkələrin hərbi, siyasi dəstəyinə arxalanmaqla ardıcıl olaraq torpaqlarımızı işğal edirdilər. Bu kimi ağır problemlərin həllinə səy göstərməkdənsə AXC-Müsavat iqtidarı küçələrə çıxıb pozulmuş hüquqlarının, tapdanan haqlarının, sıradan çıxmaqda olan dövlətçiliyinin bərpasına və inkişafına çağırışlar edən xalqın üzərinə güc strukturlarını göndərir, onları zor gücünə susdurmağa çalışırdı. 1993-cü ilin iyununda baş verən Gəncə hadisələri ölkə daxili ağır durumun kulminasiya nöqtəsi oldu. Azərbaycanda vətəndaş müharibəsi qaçılmaz idi. Ancaq aydın təfəkkürlü ziyalılar, böyük xalq kütlələri vətəndaş müharibəsindən qaçmağın və ölkənin düşdüyü böhrandan çıxarılması yolunu Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsində gördülər.



### "Azərbaycan Sizin sözünüzü gözləyir"

1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladığı və "Səs" qəzeti vasitəsi ilə Ulu Öndərimiz Heydər Əliyevə ünvanlanan "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətdə deyilirdi: "Dünənə kimi küçə, meydanlarda səhərdən axşama qədər demokratiyadan danışanlar görünür demokratiyanın mahiyyətinin nə olduğunu dərk etmirlər. Əsl demokratik ölkələrdə ordu, polis, başqa inzibati orqanlar siyasətdən kənardır və bütün bu qüvvələr hakimiyyətdə olanlara deyil, xalqa xidmət edirlər. Rəhbərliyin siyasi naşılığından, idarəetmə səriştəsizliyindən, hakimiyyət hərisliyindən həm daxildən, həm də xaricdən müəyyən qüvvələr öz mənafeləri üçün məharətlə istifadə edirlər. Əgər dünənə qədər Azərbaycanın sərvətləri bir istiqamətə daşınıb aparılırdısa, indi var-dövlətimiz bir neçə səmtə axıdılır. Bir sıra Şərq ölkələrindən qovulmuş Qərb inhisarçıları indi asanlıqla çoxdan həsrətində olduqları Bakı neftini ələ keçirirlər. Belə gedərsə biz siyasi əsarətdən qurtarmamış, tezliklə iqtisadi əsarətə məruz qalacağıq. Çünki respublikanın olan-qalan iqtisadi potensialı sürətlə dağılır, təbii sərvətlərimiz talan edilir. Vəziyyətin ağırlığından, çıxılmazlığından, həyatın qeyri-sabitliyindən, gələcəyə ümidsizlikdən respublikanı yüzlərlə ziyalı - yüksək ixtisaslı kadrlar tərk edir. Sözsüz ki, ən ağır zərbə geniş xalq kütləsinə, aşağı təbəqəyə dəyir. Hadisələrin bu cür inkişafı göstərir ki, yaxın gələcəkdə sosial ədalətdən heç əsər-əlamət də qalmayacaq. Halbuki uzun illər boyu imperiya boyunduruğu və totalitar rejim altında inildəyən xalqımız bu gün demokratik qanunlara əsaslanan vətəndaş cəmiyyəti qurmaq arzusu ilə yaşayır". Ziyalıların müraciətində qeyd olunur ki, ölkəni düşdüyü ağır vəziyyətdən yalnız Siz çıxara bilərsiniz: "Möhtərəm HEYDƏR BƏY! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər.

Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu, peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü, aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bu günü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu partiyanın mövqeyində dayanacaqlar. Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar".




### "Yeni, müstəqil Azərbaycan uğrunda"

Hər zaman qəlbi xalqı ilə döyünən Dahi Öndərimiz Heydər Əliyev ziyalıların narahatlığını başa düşürdü. Ona görə də, Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli "Yeni, müstəqil Azərbaycan uğrunda" adlı cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər". O fikri vurğulamaq lazımdır ki, o dövrdə "Səs" qəzeti xalqın istək və arzularının əsas və yeganə təbliğatçısı və təqdimatçısı olub. Qəzetin 1991-1993-cü illər saylarında Ulu Öndər Heydər Əliyevin müsahibələrini və Onun haqqında məqalələri, həmçinin ölkə parlamentindəki çıxışlarını oxucularına təqdim edirdi. Qəzet ulu öndərin xarici mətbuata verdiyi müsahibələri tərcümə edərək ölkə ictimaiyyətinə çatdırırdı.



Azərbaycan Partiyasına böyük etimadının göstəricisi idi. 1999-cu il dekabrın 12-də isə Azərbaycanda ilk dəfə keçirilən bələdiyyə seçkilərində YAP böyük uğur əldə etdi və partiyadan 10 min 431 nəfər bələdiyyə üzvü seçildi. Partiyanın yeni dövrün tələblərinə uyğun inkişafı 1999-cu ildə keçirilmiş qurultaydan sonra daha da genişləndi. Belə ki, YAP-ın rəhbərliyində Azərbaycan gənclərinin lideri olaraq Cənab İlham Əliyevin təmsilçiliyi partiyanın inkişafına yeni dəstək oldu. Ulu Öndər Heydər Əliyevin siyasi varisi olaraq Cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyətini daha geniş beynəlxalq müstəvilərə daşımaq məqsədini uğurla həyata keçirdi.

1999-cu ildən sonra Yeni Azərbaycan Partiyası dünyanın bir sıra sağ mərkəzçi hakim partiyaları ilə əlaqələr qurdu, beynəlxalq təşkilatlarda təmsilçilik hüququ qazandı. Partiyanın nüfuzunun artması nəticə etibarı ilə sıralarının genişlənməsinə gətirib çıxartdı. 2005-ci ilin mart ayında keçirilən YAP-ın III Qurultayında Azərbaycan Prezidenti, YAP Sədrinin birinci müavini Cənab İlham Əliyevin partiyanın Sədri seçilməsi ilə partiyanın həyatında yeni mərhələ başladı. Əgər YAP-ın 2001-ci ildə keçirilmiş II Qurultayı zamanı partiya üzvlərinin sayı 230 min nəfər idisə, III Qurultaya qədər bu göstərici 360 min nəfərə yüksəlmişdi. Hazırda isə partiyamızın üzvlərinin sayı 800 minə yaxındır. YAP-ın 5 mart 2021-ci il də keçilən qurultayında yeni, müasir dövrün tələblərinə uyğun qərarlar qəbul edildi. VII qurultayda bir daha aydın oldu ki, YAP Azərbaycanın hərtərəfli inkişafına töhfə verən böyük sosial bazaya, güclü siyasi-intellektual potensiala malik partiyadır. YAP-ın VII Qurultayında qəbul edilmiş qərar əsasında Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsi, 40 nəfər tərkibdə İdarə Heyəti, 13 nəfərdən ibarət Təftiş Komissiyası və yeni qurum olaraq YAP-ın Veteranlar Şurasının 35 nəfərlik tərkibi təsdiq edilib. Bu islahat YAP-ın inkişafında yeni tarixi mərhələ deməkdir.

Məhz yeni dəyişikliklər və islahatlar Yeni Azərbaycan Partiyasına cəmiyyətdə inamın və etibarın daha da yüksəlməsinə təkan verir. Sentyabrın 1-də keçilən Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyasının yerlərin böyük hissəsinə sahib olması xalqın Ulu Öndərimiz Heydər Əliyevin qurucusu olduğu və Fateh Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi YAP-a etimadının Azərbaycan dövləti durduqca dəyişməz olaraq qalacaq.

**İLHAM ƏLİYEV**

Dahi Öndərimiz Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra "Səs" qəzeti həm Ulu Öndərin, həm də YAP-ın fəaliyyəti haqqında cəmiyyəti məlumatlandırmaq missiyasını davam etdirdi. Məhz buna görə Dahi Öndərimiz Heydər Əliyev YAP-ın 10 illik yubileyindəki çıxışında "Səs" qəzetini Azərbaycanın tarixinə düşmüş bir qəzet kimi xarakterizə etmiş və demişdi: "Səs" qəzeti mənim üçün çox əziz qəzetdir. Mən bu qəzetin xidmətlərini xüsusi qiymətləndirirəm. O zaman ki, mən Naxçıvanda işləyirdim və Bakıda bəzi dairələrdə Naxçıvana qarşı ədalətsiz hərəkətlər olurdu. "Səs" qəzeti cəsarətlə çox ağıllı şəkildə məqalələr yazır, öz fikirlərini deyirdi. İctimaiyyətdə düzgün fikir formalaşmasına səy göstərirdi. Bu qəzetə qarşı təzyiqlər olurdu, lakin qəzet öz ideyaları uğrunda mübarizə aparmağı bacarırdı. "Səs" qəzetinin YAP-ın yaranmasında, cəmiyyətin maarifləndirilməsində məlumatlandırılmasında çox böyük rolu olub. "Səs" qəzeti tarixə düşmüş bir qəzetdir".



## YAP-ın yaranması və fəaliyyətini xalqa xidmət üzərində qurması

"91-lər" - in "Səs" qəzeti vasitəsi ilə Azərbaycan xalqının adından Ulu Öndər Heydər Əliyevə müraciəti ölkəmizin başının üstünü alan qara buludların tədricən aradan qaldırılmasına təkan oldu. Bu müraciətlə ziyalılar tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciətə Ulu Öndərin müsbət cavab verməsi nəticəsində Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak etmiş və Ulu Öndərimiz Heydər Əliyev partiyanın Sədri seçilmişdir. Yeni Azərbaycan Partiyasının siyasi səhnəyə çıxması ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı. Təbii ki, Yeni Azərbaycan Partiyasının yaranması o zaman ki ağır fəlakətli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət idi. Bununla bağlı Dahi Öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır".

2022-ci il noyabrın 21-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev partiyamızın yaranmasının tarixi hadisə olduğunu bildirdi: "O vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı. Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdir, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdir. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri, vətənpərvər insanlar, ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında görürdülər və məhz buna görə Ulu Öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciət əsasında, bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirilmişdir. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı".

Xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndərimiz Heydər Əliyev düzgün, məqsədyönlü müdrik siyasəti ilə qısa müddətdə Azərbaycanı üzləşdiyi bəlalardan xilas etdi. İqtisadi, sosial, hərbi və digər sahələrdə böyük uğurlara imza atıldı. Nüfuzlu beynəlxalq təşkilatlarla, aparıcı dövlətlərlə geniş və əhatəli əlaqələr quruldu. 1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkilərində Dahi Öndərimiz Heydər Əliyev 98.80% səslə qalib gəldi və bununla da YAP iqtidar partiyası kimi özünü təsdiq etdi. Partiya "Yeni, müstəqil Azərbaycan uğrunda" ideyasından çıxış edərək, dövlət siyasətinin həyata keçirilməsində yaxından iştirak etməyə başladı. Üzvlərinin sayı sürətlə artan YAP aparıcı siyasi partiya kimi respublikanın ictimai-siyasi həyatında yüksək fəallıq nümayiş etdirdi. 1995-ci il noyabrın 12-də keçilən parlamentə seçkilərdə YAP qələbə qazanaraq, Azərbaycan Respublikasının Milli Məclisində 59 deputatla təmsil olundu. Bu qələbə xalqımızın Yeni

# “Paşinyan Zəngəzur dəhlizi ilə bağlı öhdəlikdən imtina etməyə çalışır”

## Sergey Markov: "Belə davam etsə, Ermənistan blokadada qalacaq, blokada götürülməsə isə, Ermənistan inkişaf etməyəcək"

***Siyasi Araşdırmalar İnstitutunun (Rusiya) direktoru Sergey Markov ”Moskva-Baku” portalına müsahibəsində İrəvanın Zəngəzur dəhlizi ilə bağlı səsləndirdiyi bəyanatların məqsədini açıqlayıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

*- Son aylarda Ermənistanın baş naziri qondarma Zəngəzur dəhlizi ilə bağlı sözləri manipulyasiya etməkdə davam edir. Bu yaxınlara qədər o, birbaşa və israrla bildirirdi ki, Rusiya, Ermənistan və Azərbaycan liderlərinin imzaladığı üçtərəfli bəyanatın 9-cu bəndində nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması ilə bağlı Rusiya FSB-nin nəqliyyat marşrutuna nəzarəti barədə heç bir sitat yoxdur. Sənəddə belə bir tezis olsa da... Belə addımları necə başa düşmək olar?*

- Ermənistanın baş naziri də eyni məqsədə- Rusiyanı regiondan sıxışdırıb çıxarmağa və Cənubi Qafqazda mövqelərini zəiflətməyə çalışır. Onu Ermənistandan sıxışdırıb Qərblə əvəz etmək məqsədi var. Bu, onun ikinci Qarabağ müharibəsində Ermənistanın məğlubiyyətindən sonra addım-addım irəliləməyə başladığı strateji məqsədidir. O, erməni xalqının Rusiyaya qarşı məyus olmasından istifadə edərək müvafiq əhval-ruhiyyəni gücləndirir və əhalinin bu cür hissləri ilə Qərbə doğru siyasi kursun dəyişməsini izah etməyə çalışır.

Rusiyanın bölgədən sıxışdırılması İrəvanın planına görə, onun Zəngəzur dəhlizi layihəsindən kənarda qalması deməkdir. Bundan əlavə, o, Qərbin dəstəyi ilə bütün platformalarda fəal şəkildə təbliğ etdiyi özünün ”Dünyanın kəsişməsi” layihəsi ilə əvəz etmək istəyir. Amma mən onun təbliğatını daha çox siyasi alət adlandırardım. Qonşularla- Azərbaycan və Türkiyə ilə sülh olmadan belə bir layihə mümkün deyil. Bu gün bu, daha çox profanasiya layihəsi və mücərrəd bir layihədir. Bunun reallıqla az əlaqəsi var. Üstəlik, Ermənistan o qədər də kəsişmə nöqtəsi deyil, daha çox dənizə çıxışı olmayan, respublikanın çətin münasibətləri olan ölkələrlə əhatə olunmuş ucqar guşədir. ”Dünyanın kəsişməsi” indiki vəziyyətdə heç yerə aparmayan yoldur. Hətta Qərbin dəstəyi olsa belə Ermənistanla qonşuları arasında sülh olmayandan sonra bu necə mümkündür?! İnanıram ki, Paşinyan özü də yaxşı başa düşür ki, bütün bunlar çox zəif həyata keçirilə bilər.

Nikol Paşinyan 2020-ci il noyabrın 9-10-da Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı üçtərəfli bəyanatı rədd etmək istəyir. Rusiya baş nazirinin müavini Aleksey Overçuk Ermənistanın bəyanatdan öz imzasını geri çəkmədiyini desə də, yenə də nəqliyyat və iqtisadi əlaqələrin qarşısının alınması üzrə işlərin irəliləməsinə mane olduğuna eyham vurub. Beləliklə, İrəvan Bakı və Moskva qarşısında öhdəliklərini yerinə yetirməməyə çalışır.

Yeri gəlmişkən, biz İrəvanın tələbi ilə Rusiya sərhədçilərinin Ermənistanda mövqelərinin tədricən zəiflədiyini görürük. Rusiya sərhədçiləri 1992-ci ildən Ermənistan sərhədlərini qoruyur. Məlum olduğu kimi, ötən həftə Putinlə Paşinyan arasında Moskvada keçirilən görüşdən sonra İranla sərhəddə yerləşən keçid məntəqəsində bundan sonra Rusiya sərhədçiləri deyil, sırf erməni sərhədçiləri xidmət göstərəcək. Həmçinin Ermənistanın nümayəndələri Ermənistan-Türkiyə və Ermənistan-İran sərhədlərinin mühafizəsi üçün Rusiya sərhədçilərinə qoşulacaqlar. Bu, tamamilə məntiqli bir addım kimi görünür. Lakin İrəvanın ümumi qərbyönümlü siyasəti fonunda bu, təbii ki, növbəti ardıcıl anti-Rusiya addımı kimi görünür. Rusiyanı Ermənistandan tamamilə çıxarmaq və Qərb qüvvələrini, NATO ölkələrinin hərbi bazalarını ölkədə yerləşdirməyə dəvət etmək- plan budur.














*- Bir ölkə rəhbərinin onun üçün əlverişsiz hala gələn sitatın sənəddə olduğu halda, bunun olmadığını iddia etməsi nə dərəcədə normaldır?*

- Siyasətdə bu cür manipulyasiyalar çox təəssüf ki, normaya çevrilib. Paşinyan dönüb dolanan, irəli-geri fırlanan siyasətçi tipidir...

*- Şənbə günü Paşinyan Yerevanda "Dünyanın kəsişməsi" adlı konfrans-təqdimat keçirib. Ən maraqlısı odur ki, bir neçə aylıq təkzibdən sonra o, birdən təsdiqlədi ki, üçtərəfli bəyanatda hələ də Rusiya FSB-si ilə bağlı sitat var. Amma izah etdi ki, deyirlər, o, olması lazım olduğu kimi başa düşülmür. Və Rusiya FSB-nin hüququna malik olduğu yeganə şey Ermənistanın Azərbaycan və onun Naxçıvan eksklavını birləşdirən nəqliyyat marşrutu üzrə daşımalara nəzarəti həyata keçirməsinə nəzarət etməkdir. Daha sonra Ermənistan Xarici İşlər Nazirliyi onun bəyanatlarına aydınlıq gətirərək qeyd edib ki, İrəvanın fikrincə, Rusiya Federasiyası FSB-nin sərhədçiləri respublika ərazisində fiziki olaraq olmayacaq.*

- Bəli belə bir qarışıqlıq onlarda adi haldır. Bir-birini təkzib edən bu və ya digər şeyi deyirlər. Ancaq mesaj eynidir- biz Rusiyanın nəqliyyat marşrutuna nəzarət etməsini istəmirik və heç bir halda dəhliz üzərində Rusiya sərhədçiləri olmayacaq. Yəni deyirlər ki, bəli, biz bu müqaviləni imzalamışıq, amma indi bu müqaviləni xaincəsinə pozuruq.

Qeyd etdiyim kimi, Ermənistan bu gün sadəcə olaraq üçtərəfli bəyanata əməl etməməyə çalışır. Deyərdim ki, bu, praktiki olaraq heç bir səmimi müttəfiqi olmadığı halda ölkəni çıxılmaz vəziyyətə salan respublika üçün tipik siyasətdir. Demək olmaz ki, yalnız Paşinyan ölkəni dalana dirədi, sələfləri də Azərbaycanla sülhün bərqərar olmasına qarşı çıxanda və onun ərazilərini işğalda saxlayanda belə etdilər. Ermənistanın müxtəlif hakimiyyət orqanları müxtəlif dövrlərdə bu cür fırlanır, dolanır, mənalarla hoqqabazlıq edir, müəyyən şərtlər qoyur, nəticədə Ermənistan İkinci Qarabağ müharibəsinə, daha sonra isə Azərbaycanın antiterror tədbirlərinə nail olur.

*- Paşinyan bir daha bəyan etdi ki, üçtərəfli bəyanata Ermənistan deyil, əslində onu imzalayan digər dövlətlər əməl etmir...*

- Baş nazir sadəcə olaraq yalan danışır. Bu qədər açıq yalan danışa bilməzsən. Baxmayaraq ki, bunu da başa düşmək olar. Ermənistan kiçik, siyasi və iqtisadi cəhətdən zəif ölkədir. O, himayə olunmaq üçün bundan istifadə edir. Bəs bütün bunlar əbədi davam edəcəkmi və bu, İrəvana yalan danışmaq və öhdəliklərini yerinə yetirməmək hüququ verirmi? Qərb Ermənistana verdiyi qondarma yardımda yalnız öz məqsədlərini güdür, başqa heç nə yoxdur.

Paşinyan eyni məcrada davam etsə, Ermənistan blokadada qalacaq. Blokada götürülməsə, Ermənistan inkişaf etməyəcək. Blokadanın aradan qaldırılması üçün İrəvan Azərbaycan və Türkiyənin tələblərini yerinə yetirməlidir. Onların arasında Azərbaycan Respublikasına qarşı ərazi iddialarının Ermənistan Konstitusiyasından çıxarılması ilə Azərbaycanla tam hüquqlu sülh müqaviləsinin imzalanması da var. Zəngəzur dəhlizinin açılması, sərhədin demarkasiyası və delimitasiyasının başa çatdırılması da. Bu həm də türklərlə barışıq siyasətinin həyata keçirilməsidir. O baxımdan ki, Ermənistan Türkiyədən daha çox nəsə almaq istəyirsə, o zaman müsbət addımlar atmalıdır.

***Tərcümə - Elçin Bayramlı***

# “Sülh qovşağı” adlı UYDURMA

İllərdir ki, Ermənistanın utopic xəyallar qurduğuna nəinki biz, bütövlükdə dünya ictimaiyyəti belə şahiddir. Əlabəxüsus da Ermənistanın baş naziri Nikol Paşinyanın xəyalpərəstliyi, vaxtaşırı uydurmalara əl atması bütün dünyaya tanışdır. İndi erməni cəmiyyəti belə başa düşür ki, məhz Qərbin layihəsi olan Vovayeviçin xəyalpərəstliyinə, uydurmalarına aldanaraq, haylar onu Ermənistanın baş naziri seçiblər. Amma əli sarıqlı, beli çantalı küçə nümayişçisinin İrəvanın küçə və meydanlarında uydurduqlarının həqiqətdən uzaq olduğu qənaətində olan haylar belə erməni baş nazirin dediklərinə daha inanmırlar və ”Sülh qovşağı” adı altında yeni uydurmasının da yalan olduğu zərrə qədər də şübhə doğurmur. Xüsusən də statistik məlumatlar, reallıqlar belə təsdiq edir ki, Paşinyanın ”Sülh qovşağı” da bir uydurma, bir yalandır.




## Ən sadə iqtisadi təhlil belə təsdiq edir ki, Nikolun fikirlərinin heç bir iqtisadi əsası yoxdur

Ermənistanın Baş naziri Nikol Paşinyan bu dəfə artıq utanmadan, çəkinmədən və əsassız şəkildə bəyan edib ki, ölkəsi təşəbbüs göstərdiyi ”Sülh qovşağı” layihəsinin reallaşdırılması nəticəsində 10 milyardlarla dollar məbləğində gəlir əldə edə bilər. Amma necə və hansı şəkildə əldə edə biləcəyini erməni baş nazir qətiyyən əsaslandırmayıb. Əslində, heç əsaslandıra da bilməz, çünki bu mümkün deyil axı. Ən sadə iqtisadi təhlil belə təsdiq edir ki, Nikolun fikirlərinin heç bir iqtisadi əsası yoxdur. Reallıq bundan ibarətdir ki, bütün mümkün tədbirlərə Paşinyan əl atsa belə, hər şey onun istədiyindən də yaxşı olsa belə, Ermənistan tranzitdən bu qədər gəlir əldə edə bilməz. Çünki Ermənistanın tranzit potensialı məhduddur və bu baxımdan da Nikol Paşinyanın proqnozları qətiyyən reallığa, həqiqətə uyğun deyil. Yəni, onun dedikləri, ”Sülh qovşağı” ilə bağlı söylədikləri sadəcə, uydurmadır.

Yeri gəlmişkən, bu uydurma proqnozlar verərkən şəxsən Vovayeviçdən soruşmaq lazım idi ki, bu ilin birinci yarısında Ermənistan özü yük maşınlarının Gürcüstan ərazisindən tranziti üçün nə qədər vəsait ödəyib? Görəsən, ”fantastik” proqnozlar verən Nikol bilirmi, yaxud da nəzərə alırmı ki, ölkəsi cari ilin altı ayı ərzində yük maşınlarının Gürcüstan ərazisindən tranziti üçün cəmisi 13 milyon dollar ödəniş edib? Belə çıxır ki, il ərzində Ermənistan həmin yük daşınmalarına görə cəmisi 26 milyon ABŞ dolları ödəməli olur. Bu rəqəm nə qədər şişsə belə 30 milyon dolları aşa bilməz. Hətta Nikol da bu rəqəmi istədiyi qədər şişirtsə belə dediyi proqnozların uydurma olmadığını təsdiq edən rəqəmi ala bilməz.

Nikol Paşinyan ağlına gələn proqnozu verdiyi zaman ən azından maraqlanmalı idi ki, görəsən yanvar-iyun aylarında Gürcüstan ərazisindən ümumilikdə nə qədər yük maşını keçib və bununla da həmin ölkənin büdcəsinə nə qədər vəsait daxil olub. Əgər maraqlansa idi və yaxud nəzərə alsa idi ki, cari ilin birinci yarısında qonşu ölkənin ərazisindən cəmisi 249,4 min yük maşını keçib və bununla da həmin ölkənin büdcəsinə cəmisi 32 milyondan bir qədər artıq ABŞ dolları daxil olub, bu qədər şişirtmə proqnoz verməkdən çəkinər, ya da bir ar-abır edərdi. Əgər Gürcüstan ərazisindən keçən hər bir nəqliyyat vasitəsinə görə Ermənistanın tranzitə görə 130 dollar ödədiyini və sadalanan statistik göstəriciləri ona xatırladan belə olsaydı bu qədər uydurma proqnoz verməyə bəlkə də cəsarət etməzdi. Fəqət bu sadalananlarla bağlı erməni baş nazir nə özü düşünüb, nə də ona xatırlatma edilib deyə, əsassız şəkildə ağlına gələn proqnozu verib. Daha doğrusu uydurub.



## Paşinyanın uydurmalarına heç cür don geyindirmək mümkün deyil

Doğrudur, yeni nəqliyyat dəhlizlərinin yaradılmasına maraq məntiqidir və Cənubi Qafqaz ölkələrinin marağı da başadüşüləndir. Ermənistan özünün də son dövrlərdə perspektivli görünən layihələrdən geridə qalmaq istəməməsi anlaşılandır. Amma anlaşılmayan Ermənistanın baş naziri Nikol Paşinyanın fantastik proqnozlar verməsi, ”Sülh qovşağı” uydurma səsləndirməsidir. Ermənistanın qonşu ölkəsi olan Gürcüstanın tranzit rüsumlarından əldə etdiyi gəlirləri nəzərə aldıqda, Paşinyanın uydurmalarına heç cür don geyindirmək mümkün deyil. Əvvəla ona görə ki, Ermənistan məhz Gürcüstandan artıq hansısa coğrafi üstünlüklərə sahib deyil. Əksinə, Gürcüstanın coğrafi üstünlükləri və imkanları Ermənistana baxanda daha çoxdur. Gürcüstandan fərqli olaraq, Ermənistanın heç dənizə çıxışı da yoxdur və tranzit baxımında da müqaisəyə gəlməyəcək dərəcədə qonşu ölkədən geri qalır. Belə olan halda, Gürcüstanın tranzit rüsümündan əldə edə bilmədiyini Ermənistan necə əldə edə bilər axı?

Dənizə çıxışı olmayan bir ölkənin, yəni Ermənistanın öz ərazisindən keçən nəqliyyat vasitələrinə tətbiq edəcəyi tranzit rüsumlarından xəyal etdiyi qədər gəlir əldə etməsi barədə proqnozlar həddən artıq dərəcədə, hətta fantastik şəkildə şişirtmədir. Şəxsən Paşinyan bilirmi, yaxud nəzərə alırmı ki, 2021-ci ilin yanvarından bu vaxta qədər Ermənistan nəqliyyat vasitələrinə tətbiq olunan tranzit rüsumlarından Gürcüstan büdcəsi ümumilikdə təxminən 73 milyon ABŞ dollar məbləğində gəlir əldə edib? Yəni, erməni baş nazir bu statistik göstəricini heç olmasa nəzərə alsa idi başa düşərdi ki, Gürcüstan kimi dənizə çıxışı olan bir ölkə dörd ilə yaxın müddət ərzində Ermənistandan heç bir milyardın onda biri qədər də vəsait ala bilməyibsə, onun söylədiklərinin ağ yalandan başqa bir şey olmadığı qənaətinə gəlmək heç də çətin deyil. Bəs yaxşı bütün bunların fonunda öz uydurmalarına Paşinyan necə don geyindirməyi düşünür? Maraqlı və məntiqi suallar ortaya çıxır, amma deyəsən bu sualları Ermənistanın baş naziri qətiyyən özü-özünə verməyib. Yaxud, görünür erməni cəmiyyətində belə suallar ona qətiyyən ünvanlanmayıb, əks halda, yalanlarına, uydurmalarına hərhansı şəkildə don geyindiməyə çalışardı, baxmayaraq ki, bu boyda uydurmaya, yalana hansısa don geyindirmək qətiyyən ağlasığan deyil.

## “Sülh qovşağı” ilə bağlı fantastik proqnozun, daha doğrusu uydurmaların əsassız olduğunu təsdiq edən məqamlar

Beli çantalı, əli sarıqlı küçə nümayişçisi, Ermənistanın hazırkı baş naziri Nikol Paşinyan ola bilsin başa düşə, ya da hesablaya bilməyib ki, Ermənistanın tranzitdən 10 milyardlarla dollar qazanması üçün bu ölkədən təxminən 77 milyon ədəd yük maşını keçməlidir. Əgər bunu başa deşə, yaxud hesablaya bilsəydi dərk edərdi ki, onun fantastik proqnozunun gerçəkləşməsi qətiyyən mümkün deyil və statistik rəqəmlər də dediklərinin uydurma olmasını təsdiq edən məqamlardır. Belə məqamlar heç də az deyil və erməni baş nazir bunlar haqqında gərək vaxtında düşünərdi ki, əsassız proqnozlarla, yəni uydurmalarla özünü gülünc vəziyyətə salmasın. Amma görünür uydurmalara elə alışqandır ki, gülünc olmaqdan belə qətiyyən çəkinmir.

”Sülh qovşağı” dediyi layihənin, daha doğrusu uydurmanın işə düşməsinin ilk ilində Ermənistanın nəqliyyat sisteminin 4,7 milyon ton yükün tranzitini təmin edə biləcəyini Nikol Paşinyan əsassız şəkildə iddi edir və bunun da əsassız olduğunu statistik göstəricilər təsdiq edir. Xüsusən də 2050-ci ilə qədər qeyd olunan göstəricinin 10 milyon tona çatacağı barədə fantastik proqnoz verən Nikol Paşinyan belə görünür heç dərk etmir ki, yüklərin əksər hissəsi avtomobillərlə daşınacaq və 26 il ərzində keçən avtomobillərin 26 milyondan artıq ola bilməyəcəyi 10 milyard ABŞ dolları qazanmaq üçün tələb olunan avtomobil sayının üçdə birindən də azdır. Sözsü ki, sadalananlar məhz ”Sülh qovşağı” ilə bağlı fantastik proqnozun, daha doğrusu uydurmaların əsassız olduğunu təsdiq edən məqamlardır. Ümid edirik ki, həmin sadalanan məqamları nə vaxtsa Nikol Paşinyan başa düşər, yaxud nəzərə alar və bir daha ”Sülh qovşağı” adlı uydurma səsləndirmək istəyinə düşməz...

***İnam Hacıyev***

# Uşaqların ”Tik-Tok”da nə işi var?..

***Biz özümüz də fərqində olmadan uşaqlarımızın başına olmazın müsibətlərini açırıq. Onları sosial şəbəkələrdə reklam etməklə nə qazanırıq, deyə bilmərəm, lakin bunun heç də doğru olmadığını əminliklə söyləyə bilərəm.***

Gül kim uşaqları milyonların qarşısına çıxarıb onların o gözəl üzünü, gülüşünü, hərəkətlərini göstərəndə nə olur ki, görəsən? Bir də görürük ki, uşaq durduğu yerdə elə bir xəstəlik tapdı ki, gəl, görəsən? Qalırsan xəstəxanalarda, həkimlərdə. İndi gəl, insanları başa sal ki, hər gözdə, hər nəfəsdə bilmədiyimiz mənfi bir qüvvə var...


















İndi dəbdir, uşaq doğuldumu, xəstəxanadan çıxarılanda sosial şəbəkələrdədir. Bir ayından bir yaşınadək hər ayın tamamında xüsusi fotosessiyalarla yenə də sosial şəbəkələrdədir. Bir yaşından sonra isə uşaqların başına açdığımız bu oyunların miqyasını daha da genişləndirib onların reklamını Tik-Tok şəbəkəsində aparmağa başlayırıq.

Bu günlərdə isə Tik-Tokda uşaqların psixoloji vəziyyətinə mənfi təsir göstərəcək yeni bir paylaşım var. Qarşılarındakı ana, nənə, bibi, xala, ata, dayı, əmidirmi, bilmirəm, uşaqları danışdırmaq üçün suallar yağdırır. Bu sualların qarşısında isə uşaqlar bəzən aqressivləşir, bəzən şirin-şirin cavablar verir, bəzən əzilib-büzülür, gülür... Bütün bunlardan isə həmin o valideyn və qohumlar əməlli-başlı istifadə edir.

Vallah, sözün bitdiyi andır bu mənzərələrin hər biri. Nə deyəsən, bilmirəm. Sadəcə düşünürsən ki, hə, bunun başqa bir tərəfi də var axı. Çoxları belə videolarla sosial şəbəkələrdən pul qazanır. Lakin pul hər dərdin dərmanıdırmı məgər? Pul qazanmaqdan ötrü uşaqlarımızı nə üçün reklam etməliyik? Pul qazanmaqdan ötrü nə üçün milyonlarla uşağın mənəvi-psixoloji vəziyyətinə xələl gətirən videolar paylaşmalıyıq?..

Bir də ki, hərəkətlərimizlə uşaqlarımızın gələcəkdə utanmasına şərait yaradırıq, bunu düşünən varmı? Bu gün sosial şəbəkələrdə paylaşdığımız videolar uşaqlarımız böyüyən zaman onlar üçün problem yaradacaq. Bu videoları görən sinif yoldaşları, dostları, rəfiqələrinin lağlağalıq etməyəcəklərinə kim təminat verə bilər. Belə olan halda isə uşaqlarımız bir-biri ilə dalaşacaq, biz də onları qarşımıza qoyub ”ay bala, sizin bir-birinizlə dərdiniz nədir axı?”,- deyib ittiham edəcəyik. Və yaxud da məktəbə gedib direktordan tutmuş sinif rəhbərinədək hamısını məsələyə qatacağıq. Lakin bizə bir sual verən olacaqmı ki, axı bu məsələlərin kökündə nə dayanır? Bəli, məsələnin kökündə bəzi böyüklər dayanırıq. Hərəkətini, yeri gələndə nə etdiyini, nə danışdığını bilməyən böyüklər.

Uşaqların axı bu Tik-Tokda nə işi var? Necə qıyırsınız onlara? Nə üçün gül kimi uşaqlarımızı bütün dünya görməlidir? Onlardan istifadə etmədiklərini haradan bilirsiniz?

Milli-mənəvi dəyərlərimizi məhz etməyə çalışan bu sosial şəbəkəyə övladlarımızı alət etməyək. Bu barədə bir az düşünsək, çox yaxşı olar...

***Mətanət Məmmədova***

# “Gürcüstanla bağlı müxtəlif əks qərarlar qəbul edilir”

**“2003-cü ildə Saakaşvilinin hakimiyyətə gəlməsindən indiyə qədər Qərbin Gürcüstandakı siyasətinin məqsədi bu ölkəni Rusiyanın təsiri altından çıxarmaq və Qərbin strukturlarına tam şəkildə birləşdirməkdir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.**






O bildirib ki, Saakaşvilinin dövründə bu istiqamətdə işlər demək olar ki, səkkiz il onlara lazım olan forma və səviyyələrdə getdi: ”Ancaq sonradan Saakaşviliyə verilən dəstək ya metodiki səhvlik ucbatından, ya da məqsədli şəkildə müəyyən fasilələr verildiyinə görə Gürcüstanda hakimiyyət yenidən başqa qütbə işləyən qüvvələrin əlinə keçdi. O vaxtdan indiyə qədər də Qərbin Gürcüstandakı vəziyyəti dəyişmək hakimiyyətə yenidən qərbyönümlü qüvvələri qaytarmaq siyasəti kursu tam gücü ilə davam etdirilir.

Son vaxtlar biz Gürcüstanla bağlı Qərbin siyasətində müxtəlif yanaşmalar görürük. Əgər 2012-ci ilə qədər biz Gürcüstana tam şəkildə dəstək görürdüksə, 2012-ci ildən bu yana Gürcüstanda siyasi proseslər İvanişvilinin monopoliyası altına keçəndən sonra yanaşmalar dəyişib. Gürcüstanla bağlı daha çox təziq siyasəti görürük. Hətta bu yaxınlarda Gürcüstana sanksiyalar da tətbiq olunub. Gürcüstanın baş nazirinin BMT-də keçirilən tədbirlərdə iştirakının qarşısı alınıb. Ona hətta dəvətnamə verməkdən də imtina edliblər. Bu gün Avropa parlamenti, Avropa Birliyinin müxtəlif strukturları Gürcüstanla bağlı müxtəlif əks qərarlar qəbul edirlər. Hətta sanksiyalar haqqında düşünürlər. Belə bir şəraitdə Qərbin məqsədi Gürcüstanı yenidən qərbyönümlü kursa tam şəkildə qaytarmaq və Rusiya hakimiyyətinin buradakı mövqelərini tam sarsmaqdır. Əlbəttə, bu istiqamətdə Qərb o qədər konkret əhval-ruhiyyədə fəaliyyət göstərir ki, bu siyasətin Gürcüstanda nəyə gətirib çıxaracağı onlar üçün önəmli deyil”.

Onun sözlərinə görə, Gürcüstanı Rusiyanın himayəsindən qoparmaq üçün hər nə desən razılaşacaqlar: ”Hətta bu siyasətin sonunda Gürcüstanda vətəndaş müharibəsi törədiləcəyi, qarşıdurmalara, xaosa gətirib çıxaracağı, hətta Gürcüstanla Rusiyanın qarşıdurmasının yenidən başlanması belə baş verəcəksə, ona da getməyə hazırdırlar. Çünki müasir dünyada geosiyasi qarşıdurmalar və mübarizələr açıq şəkil alıb. Qərb də gizlətmir ki, onun hədəfi Gürcüstanı Rusiyanın təsirindən qoparıb Qərbə birləşdirməkdir. Bu yolda hər şeyi önlərinə alıblar. Amma gürcü cəmiyyəti və xalqının hansı rol oynayacağını biz oktyabrın 26-da seçkilər zamanı görəcəyik.

Oktyabrın 26-da Ermənistanın xüsusi həlledici rolu ola bilər. Çünki Ermənistan özü də Qərblə inteqrasiya siyasəti götürdüyünə görə Gürcüstandakı qərbpərəst qüvvələrə təbii müttəfiqi kimi baxır. Ermənistan hakimiyyəti Gürcüstandakı hadisələrə münasibətdə Gürcüstandakı erməni diasporu ilə birlikdə pərdə arxasında çox aktiv rol oynaya bilərlər. Gürcüstanın bu günü qeyri-müəyyəndir. Sabahının isə necə olacağını oktyabrın 26-da görəcəyik”.

***Söylü Ağazadə***

# COP29-un bədxahları...

## Onlar cinayətkar erməni separatçılarını cəzadan xilas etməyə çalışırlar

***Ölkəmiz bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etmək ənənəsi ilə fərqlənir. Bu cür irimiqyaslı beynəlxalq tədbirləri təşkil edib keçirməyə hər dövlətin gücü çatmaz. Artıq çoxdan məlumdur ki, 11-22 noyabr tarixlərində Azərbaycanın paytaxtı Bakı şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Konfransı, daha çox COP29 kimi tanınan tədbir keçiriləcək. Ətraf mühitin qorunması sahəsində dünyanın ən böyük və əhəmiyyətli tədbiri olaraq bu konfrans Bakıda on minlərlə qonağı bir araya gətirəcək. Qonaqlar arasında dövlət və hökumət başçıları, nazirlər və müxtəlif səviyyələrdən olan ekspertlər, dövlət qurumlarının nümayəndələri olacaqlar.***




Bu cür miqyaslı tədbirlərin keçirilməsi ev sahibi ölkə üçün təkcə qürur mənbəyi deyil, həm də təşkilati və intellektual resursların səfərbər edilməsini tələb edən böyük bir çağırışdır. Bununla belə, konfransın keçirilməsi ilə bağlı bütün məsələləri həll edərkən Azərbaycan siyasi xarakterli əlavə çağırışla üzləşdi. Bu ilin yayından başlayaraq ölkəmizə qarşı qara piar kampaniyası başlayıb. Düşmənlərimiz öz fəaliyyətlərini bir sıra metodlarla həyata keçirirlər. Lakin Azərbaycanın bədxahları öz iyrənc təbliğatları üçün mərkəzi platforma olaraq "X" sosial şəbəkəsini seçiblər. Bu şəbəkədə kampaniya bu ilin iyun ayında başlayıb və onun erməni mənşəli, yaxud erməni mövqeyində duran şəxslər tərəfindən aparıldığını görmək çətin deyil. Onlar sistemli şəkildə dünya ictimaiyyətini siyasi səbəblərdən COP29-u boykot etməyə çağırırlar. Kampaniyanın əsas məqsədləri ölkəmizin nüfuzuna xələl gətirmək, COP29-un Bakıda keçirilməsinin qarşısını almaq, konfransdan Azərbaycana siyasi təzyiq vasitəsi kimi istifadə etmək, xüsusilə də istintaq altında olan erməni hərbi cinayətkarların azad edilməsinə nail olmaqdır.



Xatırlatmaq lazımdır ki, haqqında danışılan şəxslər 1992-2020-ci illərdə Azərbaycan ərazilərinin işğalı dövründə Ermənistan quldur birləşmələrinin Qarabağ bölgəsində törətdikləri bir sıra hərbi cinayətlərdə ittiham olunurlar. Təcavüzkar müharibənin planlaşdırılması, hazırlanması və ya başlanması, silahlı münaqişələr zamanı beynəlxalq humanitar və hüquq normalarının kobudcasına pozulması, silahlı münaqişə zamanı hərəkətsizlik və ya cinayətkar əmrlərin verilməsi, terrorizmin maliyyələşdirilməsi, terrorçuluq məqsədilə hərbi və kəşfiyyat təlimlərinin keçirilməsi, qəsdən adamöldürmə, kütləvi qətllər, cinayətkar birliyin-cinayətkar təşkilatın təşkili, qanunvericiliklə nəzərdə tutulmayan qanunsuz silahlı birləşmələrin və ya qrupların yaradılması. Bütün bunları törədən cinayətkar rəhbərlər Birinci və İkinci Qarabağ müharibələrində azərbaycanlıların kütləvi qətlinə, 700 mindən çox insanın doğma yurdundan məcburi köçkün düşmələrinə, şəhər və kəndlərimizin qarət edilməsinə, qağıdılıb yandırılmasına hərbi və mülki əsirlərin dəhşətli işgəncələrə məruz qoyulmasına və digər ağır cinayətlərin törədilməsinə əmr veriblər.

Həmin bu şəxslərin əmri ilə hərbi əməliyyatların keçirildiyi ərazidən xeyli aralıda yerləşən şəhər və kəndlərimizi raket atəşləri ilə dağıtmış, aralarında uşaqların və qadınların da olduğu mülki insanların ölümünə bais olmuşlar. Gəncəyə, Tərtərə, Ağcabədiyə, Mingəçevirə, Bərdəyə, Yevlağa, Goranboya raketlərin atılması müharibə qaydalarına zidd olsa da bu gün Bakıda həbsdə olanlar bunu bilərəkdən etmişlər. Təkcə Tərtər şəhərinə 16 mindən artıq raket atılıb. Bakıda həbsdə olan müharibə caniləri bu cinayətlərdə ya birbaşa, ya da dolayısı ilə iştirak ediblər. Ancaq onlarla birgə Seyran Ohanyan, Robert Koçaryan, Serjik Sarkisyan və başqaları da cinayətlərin törədilməsində birbaşa iştirakçılardır Onlar iki xalqın arasında düşmənçiliyin daha da dərinləşdirilməsində xüsusi "xidmətlər" göstəriblər. Bunun nəticəsidir ki, erməni quldur dəstələri tərəfindən əsir tutulmuş 4 min azərbaycanlının taleyi bu gün də məlum deyil. Ancaq Ermənistan rəhbərliyi soydaşlarımız barədə heç bir məlumat vermir.

Təəssüf ki, Ermənilərin törətdikləri bu cinayətlərdən sonra Qarabağdakı separatçıları müdafiə edənlər var. Onlar Bakıda keçiriləcək COP29 tədbirləri ərəfəsində dövlətimizə təzyiq göstərərək həmin cinayətkarın həbsdən azad edilməsinə çalışırlar. Bu qara piarın müəllifi isə ABŞ-dakı ermənipərəst qüvvələrdir. İşğalçı Ermənistana 30 ildən artıq maliyyə dəstəyi göstərən bu dövlətin bəzi senator və konqresmenləri bir neçə gün əvvəl rəsmi Bakıdan həbsdə saxlanan hərbi canilərin azadlığa buraxılmasını tələb ediblər. Lakin dövlətimizin rəhbəri dəfələrlə bildirib ki, minlərlə vətəndaşımızın qanını axıdan, şəhər və kəndləri dağıdıb xarabazara çevirənlər öz cəzalarını alacaqlar.

Bəs bu qədər təzyiqlərə baxmayaraq erməni separatçı dəstənin üzvlərinin cəzalandırılması bizə nə üçün lazımdır? Əlbəttə ki, ilk növbədə ədalətin bərpası üçün. İkincisi, erməni lobbisinə bağlı həmin dairələrə və paytaxtlara, bütövlükdə erməni separatizminə təsirli dərs vermək üçün. Yəni, yadda saxlasınlar ki, nə vaxtsa baş qaldırsalar eyni aqibəti yaşayacaqlar. Üçüncüsü, Azərbaycan dövlətinin gücünü göstərmək, bölgədə onunla hesablaşmağın alternativi qalmadığını özündənrazı Qərbin nəzərinə çatdırmaq üçün. Başqa səbəblər də var...

Xatırlatmaq yerinə düşər ki, Avropa Parlamentinin son bir ildə qəbul etdiyi anti-Azərbaycan qətnaməsində Bakıda həbsdə saxlanan erməni cinayətkarlar həyasızcasına hətta siyasi məhbus kimi qələmə verilir və onlara azadlıq tələb olunur. Vallah, belə bir qələti heç Ermənistan parlamenti də etməyib. Əksinə, baş nazir Nikol Paşinyan az əvvəl dolyası ilə sepatçıların rəhbərlərindən biri olmuş Ruben Vardanyanın həbsinə haqq qazandırmışdı.

Dediyimiz kimi, Qərbin mühüm siyasi strukturlarından olan Avroparlament Ermənistan parlamentindən də artıq ermənilik edərək dağıdıcı separatizmi xilas etməyə və ona impuls verməyə çalışır. Çünki az qala məktəbli şagird də başa düşür ki, separatçı baş kəsənlər cəza almadan, islah olunmadan, uzun müddət həbsdə yatmadan azadlığa çıxarlarsa, dərhal köhnə çirkin əməllərinə davam edəcəklər. Axı, bunlar normal insanlar deyillər, haydırlar...

***Vəli İlyasov***

# Tomat pastası- zərər və faydaları

***Tomat pastasının varlığından xəbəri olmayan birini tapmaq mümkün deyil. Ondan bişmiş xörəklərə əlavə etməklə onun dadını və görünüşünü yaxşılaşdırmaq üçün istifadə olunur. Bəs, tomat pastasının hansı fayda və zərərləri var?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Tomat pomidorların istiliklə əlaqəsi ilə əldə edilir. İstehsal üçün yalnız yetişmiş qəhvəyi və ya qırmızı pomidorlardan istifadə edin. Əvvəlcə toxumlar meyvədən çıxarılır. Bundan sonra, istənilən sıxlığın tutarlılığına nail olunana qədər qaynadılır. Təbii ki, məhsul da nəmin əhəmiyyətli bir hissəsini itirir. Eyni zamanda, bərk maddələrin konsentrasiyası daha çox olur.

Tomat pastasının keyfiyyəti onun qalınlığının dərəcəsi ilə müəyyən edilir. Nə qədər yüksəkdirsə, təbiətdəki məhsul bir o qədər yaxşıdır. Bəziləri tomat pastası istehsalının müasir dövrün nailiyyəti olduğunu iddia edirdilər. Bu əslində belə deyil. İtalyanlar onu iki əsr əvvəl hazırlamağa başlayıblar. Tomat pastası italyan aşpazları tərəfindən uğurla istifadə olunur.

Müxtəlif souslar hazırlanır, tomat pastasına zeytun yağı və ədviyyatlar əlavə edilirdi. Tomat pastasına dadı yaxşılaşdıran digər maddələr əlavə edilərsə, o, avtomatik olaraq ketçupa çevrilir. Məhsulda quru maddənin miqdarı 25-40% arasında dəyişir.

Tomat pastası olan xörəklərdə duzun həddindən artıq istifadə edilməsinin sağlamlığa zərər verdiyi bir sıra mənbələrdə



# ARAŞDIRMA





diqqətə çatdırılıb. Türk mütəxəssis Hüseyin Sarıkaya hipertoniya və ürək xəstələrinə duz istehlakı ilə bağlı məlumat verib və sağlam həyat üçün nəzərə alınması lazım olan vacib məqamlara toxunub. Dr. Sarıkaya, xüsusilə də tomat pastası olan yeməklərə əlavə duz əlavə edilməməsi lazım olduğunu bildirib. Onun sözlərinə görə, tomat pastasında istehsal prosesində çoxlu duz olur və bu, duzun həddindən artıq istehlakına səbəb ola bilər. O, ürək-damar, hipertoniya, böyrək və ağciyər xəstəlikləri olan şəxslərin duz istifadəsinə çox diqqətli olması lazım olduğunu vurğulayıb.

Sağlam bir fərdin gündəlik duz istehlakının 5 qramı keçməməsi lazım olduğunu ifadə edən Sarıkaya, həddindən artıq duz istehlakının ürək-damar xəstəlikləri başda olmaqla bir çox sağlamlıq problemlərinə yol aça biləcəyini ifadə edib. O, həmçinin cəmiyyətin duz istehlakı ilə bağlı daha şüurlu olmasının vacibliyini, sağlam həyat üçün bu mövzuda maarifləndirmənin vacib olduğunu bildirib".

Sarıkaya, "Evdə hazırlanmış tomat pastasından istifadə etməyi sevən şəxslər az miqdarda duz ilə hazırladıqları tomat pastasını soyuducuda vakuum bağlayaraq şüşə bankalarda saxlaya bilərlər. Bu üsul həm tomat pastasının təzəliyini saxlamağa, həm də duzunu saxlamağa kömək edəcək. Amma istehlak nəzarət altındadır" dedi.



O, təbii və evdə hazırlanan məhsulların sağlamlıq üçün faydalı olduğunu, lakin tərkibində duzun çox olmaması lazım olduğunu da vurğulayıb. Sarıkaya bildirdi ki, tomat pastası xörəklərinin hazırlanmasında istifadə olunan duz miqdarının diqqətlə tənzimlənməsi xüsusilə ürək və təzyiq xəstələri üçün həyati əhəmiyyət kəsb edir. Sarıkaya, xüsusilə uşaqların, gənclərin və yaşlıların duz istehlakı mövzusunda daha çox məlumatlandırılmasının vacib olduğunu bildirib.

Tomat pastasının ən mühüm üstünlüyü hazır yeməklərə fərqli dadla iştahaaçan görünüş verməsidir. Tomat pastası istifadə edərək hazırlanan yeməklər iştahı stimullaşdırır, həzm şirələrinin sıx ifrazını təşviq edir.

Vitamin maddələrinin yüksək tərkibinə görə məhsulun faydalılığı

C vitamini güclü antioksidant xüsusiyyətlərə malikdir. İmmunitet sistemini yaxşılaşdırmaq, orqanizmi patogen mikrofloranın nümayəndələrindən və digər mənfi təsirlərdən qorumaq üçün tədbirlər kompleksinin aparıcı komponentidir. Askorbin turşusu ilə birlikdə adekvat beta-karoten tərkibi stressə qarşı müqaviməti artırmağa və stresli vəziyyətlərin təsirlərini aradan qaldırmağa kömək edir. O, həmçinin radiasiya faktorunun təsirinin yumşaldılmasında müəyyən rol oynayır.

B vitaminlərinə aid olan tiamin maddələr mübadiləsi ilə bağlı bütün prosesləri sürətləndirir. Əlavə çəki yığılmasının da qarşısını alır. Tiamin həzm sisteminin və ürəyin aparatlarının və damarlarının düzgün işləməsi üçün lazımdır. Nikotin turşusu (vitamin PP) aşağı molekulyar xolesterolu "həll etməyə" imkan vermir. Bundan əlavə, bəzi hormonal maddələrin istehsalı üçün lazımdır. Tərkibində cinsi hormonlar var.

Sübut olunmuş elmi fakt likopinin xərçəng hüceyrələrinin əmələ gəlməsinə manеə törətməsidir. Onların hərəkətləri ürəyin işinə müsbət təsir göstərir. Bu cür maddələr aşağı molekulyar xolesterolun azalmasına kömək edir. İtalyanlar tərəfindən tomat pastasının aktiv istifadəsi onların ürək və qan damarlarının ən aşağı xəstələnmə nisbətlərinə sahib olmasına gətirib çıxarır. Likopinlər dəriyə müsbət təsir göstərir. Dərinin cavanlığını uzatmaq üçün kosmetoloqlar gündəlik 50 qr tomat pastasından istifadə etməyi məsləhət görürlər.

İndi demək olar ki, hər hansı bir supermarketə getsəniz, kifayət qədər tomat pastası ala bilərsiniz. Onların hamısı müxtəlif istehsalçılar tərəfindən təmsil olunur. Lakin onların heç də hamısı keyfiyyət və qida təhlükəsizliyi standartlarında müəyyən edilmiş xüsusiyyətlərə malik deyil.

***Ayşən Vəli***

# Süd vəzi xərçəngi: nə qədər erkən diaqnoz, o qədər uzun ömür

*Oktyabr ayı bütün dünyada süd vəzi xərçəngi ilə mübarizə ayı kimi qeyd edilir*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılmas” istiqaməti çərçivəsində hazırlanıb*













***Dünyada qadınlarda ən çox rast gəlinən və eyni zamanda ən çox ölüm səbəbi olan süd vəzi xərçəngi süd vəzisi toxumasında hüceyrələrin nəzarətsiz çoxalması nəticəsində yaranır. Hər il oktyabr ayında keçirilən ”Döş Xərçəngi Maarifləndirmə Aylığı” dünyada 2,3 milyon qadını əhatə edən bu xəstəliyin qarşısının alınmasına təşviq etmək məqsədi daşıyır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarında bildirilir ki, yeni diaqnoz qoyulan xərçəng xəstələrinin faiz sıralamasına görə 11,7%-i süd vəzisi, 11,4%-i ağciyər, 10%-i qalın bağırsaq, 7,3% -i prostat, 5,6%-i isə mədə xərçəngidir.***

Maarifləndirmə ayı çərçivəsində metastatik döş xərçəngi də daxil olmaqla döş xərçəngi diaqnozu qoyulmuş insanlara dəstək, döş xərçəngi risk faktorları haqqında insanların maarifləndirilməsi və məlumatlılığının artırılması, döş xərçəngi risklərini bilmək və uyğun yaşdan başlayaraq müntəzəm müayinənin vacibliyini vurğulamaq kimi vacib məsələlər diqqətə alınır. Xəstəlik haqqında daha çox dəstəyə və araşdırmaya ehtiyac haqqında məlumatlılığın artırılması üçün bütün yollar sınanır, bütün mübarizə üsullarından istifadə edilir. Erkən mərhələdə aşkar edilən süd vəzi xərçəngləri daha rahat müalicə olunur və ölüm nisbəti də əhəmiyyətli dərəcədə azalır.

Dünyada aparılan araşdırmalar zamanı uzun boylu qadınların xərçəngə yaxalanma riskinin daha yüksək olması barədə nəticələr əldə edilir. Bunu bir müddət öncə Amerikanın Albert Enşteyn Tibb Colleci də sübut etdi. Araşdırmanın nəticəsinə görə hər 10 sm uca boy qadınların süd vəzi, yumurtalıq, böyrək, dəri xərçəngi kimi xəstəliklərə yaxalanma riskini 13 faiz artırır. Bundan öncə də İngiltərənin Oksford Universitetində aparılan araşdırmalar 1,52 sm-dən uzun insanlarda hər 10 sm-ə görə xərçəng riskinin 16 faiz artdığını müəyyən etmişdilər. Əgər hazırda dünyada orta statistik boy nisbətini 10 il əvvəllə müayisə etsək görərik ki, insanlar getdikcə daha bəstəboy olur. Alimlər bunu qidaların genetik kodlarımızı dəyişdirməsi ilə əlaqələndirirlər.

Döş xərçəngi bir çox faktorun təsiri ilə meydana gələn xroniki xəstəlikdir. Amma bütün xərçəng növlərində olduğu kimi döş xərçəngindən də müdafiə üsulları var. Tərəvəz və meyvələrlə zəngin olan qidalardan istifadə etməklə, sağlam qidalanma vərdişləri yaratmaqla, fiziki aktivliyi artırmaqla, sağlam çəki saxlamaqla, siqaret və spirtli içkilərdən uzaq durmaqla xərçəngdən sığortalanmaq mümkündür. Xüsusilə qeyd etmək lazımdır ki, ana südü ilə qidalanmanın döş xərçəngindən qoruduğunu göstərən çoxlu araşdırmalar var ki, mütəxəssislər bütün anaların körpələrini ən az 2 il əmizdirmələri tövsiyə edir. Bu həm körpənin, həm də ananın sağlamlığı üçün vacib məsələdir.

Süd vəzi xərçəngi dünyada yayılmış ən geniş xərçəng növüdür. Hər il dünyada 400 000 qadına bu diaqnoz qoyulur. Bu, hər 29 saniyəyə bir qadının xəstə olması deməkdir. Ümumilikdə hər 8 qadından birində süd vəzisi xərçənginə rast gəlinir. Dünyada 40 yaşdan aşağı qadınlarda bu xəstəliyə görə 1-ci yeri Türkiyə tutur. Bu ölkə 40 yaşdan aşağı qadınlarda süd vəzisi xərçəngi diaqnozu sayına görə dünyada birinci yerdədir. Azərbaycanda hər 8 qadından biri süd vəzi xərçəngindən əziyyət çəkir və bu rəqəm ilbəil artmaqdadır. Üstəlik də, bu xəstəlik artıq çox gəncləşib. Bir çox qadının mammoqrafiya etdirmədiyini nəzərə alsaq bu rəqəmin ildən ilə daha çox olacağını ehtimal etmək olar.

Xərçənglə mübarizə zamanı dəyişdirə biləcəyimiz və bilməyəcəyimiz faktorlar var. Döş xərçəngindən bədənimizi mühavizə etmək üçün dəyişdirilə bilən risk faktorları oturaq həyat sürmək, artıq çəki və ya piylənmə, siqaret və alkoqol kimi faktorlardır. Dəyişdirə bilməyəcəyimiz faktorlar isə genetik olaraq xəstəliyə qarşı zəiflik, erkən və ya gec klimaks dövrü, sinə ətrafında radioloji şüalanmaya məruz qalmaq kimi vəziyyətlədir. 40 yaşını keçən hər yüz qadından 2-si süd vəzisi xərçənginə yoluxur. Erkən diaqnozu qoyulan xəstəliyin sağalma şansı 95 faizdir.

Tibb elmi deyir ki, qadınlar iyirmi yaşından başlayaraq hər ay müntəzəm olaraq süd vəzilərini müayinə etdirməlidir, belə olan halda döşlərindəki ən kiçik dəyişiklikləri erkən yaşda hiss edə biləcəklər. Döş xərçənginin mümkün qədər erkən aşkarlanması uğurlu müalicə şansı verir. Döş xərçənginin ən çox rastlanan əlaməti zamanla böyüyən ağrısız bir kütlənin olmasıdır. Bundan əlavə, süd vəzisinin şişməsi, ağrısı, qaşınma və ya iltihablanması, irinli və qanlı maye ifrazı, süd vəzinin ölçüsünün kiçilməsi, dərisinin portağal qabığı effekti, qoltuq altında kütlənin yaranması, köprücük sümüyünün ətrafında şişlik də döş xərçənginin əlamətləri ola bilər. Bu əlamətlər süd vəzi xərçəngindən başqa digər xəstəliklərdən də qaynaqlana bilsə də, müşahidə olunarsa, səbəbini öyrənmək üçün həkim müayinəsindən keçmək lazımdır.

Unutmayaq ki, döş xərçəngi inkişaf etmiş mərhələlərə çatana qədər simptomlara səbəb olmaya bilər. Odur ki, yuxarıda göstərilən əlamətlər diaqnoz qoymaq üçün kifayət etmədiyi üçün həkim müayinəsindən keçmək də şərtdir. Erkən diaqnoz müalicənin yaxşı nəticə verməsini və sağ qalma müddətini artırır. Bu səbəblə 40-69 yaş arası bütün qadınların 2 ildən bir mamoqram müayinəsindən keçməsi tövsiyə olunur. Erkən diaqnozun qoyulmasında ən mühüm faktor qadınların bu məsələdən xəbərdar olması və 40 yaşından başlayaraq mütəmadi olaraq mamoqrama getməsidir.

Evdə özümüz də süd vəzilərinin vəziyyətini yoxlaya bilərik. Bir çox ölkədə qadınlara bu mövzuda təlim də keçirlər və qadınlar 20 yaşından sonra hər ay süd vəzilərini öz-özünə müayinə edirlər. Bu müayinə zamanı insanlar güzgü qarşısında durub hər iki döşün görünüşünün simmetrik olub-olmadığını yoxlayırlar. Yuxarıda sadaladığımız əlamətlərdən hər hansı biri varmı, öyrənilir. Döşündə bir şiş, dəridə quruluq, yanma, qaşınma, ifrazat və ya hər zamankından fərqli bir əlamət görən qadın dərhal həkimə müraciət etməlidir. Xərçəng müalicə edilə bilən xəstəlikdir, yetər ki, zamanında müdaxilə edilsin və düzgün müalicə kursu təyin edilsin.

***Lalə Mehralı***

SON SƏHİFƏ

# SƏS

16 oktyabr 2024-cü il

# “Müəllimlərin intiharı ciddi şəkildə araşdırılmalıdır”



## EKSPERT DİLƏ GƏLDİ

”Müəllimlərin intihar etməsi halları ciddi şəkildə araşdırılmalı və səbəbləri anlaşılan şəkildə ictimaiyyətə çatdırılmalıdır”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Elnur Aydın deyib. O bildirib ki, tədqiqatlara əsasən intiharın əsas səbəbinin depressiya olduğu deyilir: ”Amma depressiyadan əlavə ruhi və sağalmaz xəstəliklər, spirtli içki və narkotik vasitələrdən sui-istifadə, bipolyar affektiv pozuntu, təşviş pozuntuları, posttravmatik stress pozuntusu, şizofreniya kimi hallar da intihara meyillilik yaradır. Müəllimlərin özlərinə qəsd etməsi və yaxud başqalarını öldürməsi halları da çoxalıb. Hadisələri araşdıranda məlum olur ki, intihar edənlərin əksəriyyəti maddi problemlər yaşayan, kredit borcları olan müəllimlərdir.

Müəllimlərin maddi durumu ilə bağlı sorğular aparılırmı, əgər aparılırsa, sorğuların nəticələri barədə məlumatlar haradadır?

İntiharların qarşısını almaq üçün ciddi sorğuların aparılması və sistemli dəyişikliklərə ehtiyac var. Qabaqcıl təhsil sistemlərinə malik ölkələrdə müəllimlərin dərs saatlarının necə paylanması və maddi vəziyyətinin necə yaxşılaşdırılması təcrübələri öyrənilməlidir. Azərbaycanda hansı təcrübələrdən istifadə oluna bilməsi araşdırılmalıdır.

Məktəb də, müəllim də cəmiyyətdən kənarda mövcud deyil. Əlbəttə ki, cəmiyyətdə baş verən müxtəlif proseslər, sosial problemlərin həll edilməməsi, əmək haqqının az olması, müəllimə də, məktəbə də öz təsirini göstərir. Devalvasiya istər müəllim, istərsə də digər sahələrdə çalışan insanlara, ailələrə birbaşa psixoloji təsir edən amillərdən biridir. Nəticədə insanlar yaranmış psixoloji gərginlik, sarsıntıdan çıxmağı başqalarına kobud şəkildə tətbiq etdikləri metodlarda görürlər. Buna görə də tez-tez eşidirik ki, orta məktəb direktorları adam öldürür, müəllimlər şagirdlərə aqressiv yanaşır, şagird döyülmələri baş verir. Düşünürəm ki, dərs saatlarının ədalətli bölgüsü, psixoloji dəstəyin və maddi rifahın təmin edilməsi, stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi müəllimlərin maddi-psixoloji vəziyyətini yaxşılaşdırar. Bu da müəllimlər arasında intihar hallarının qarşısının alınması istiqamətində ciddi addımlar ola bilər”.

***Söylü Ağazadə***


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Evdən qızıl oğurlayan şəxs yaxalandı



Nəsimi rayonunda evdən qızıl-zinət əşyaları oğurlayan şəxs saxlanılıb. SİA xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb. Bildirilib ki, Nəsimi RPİ 19-cu Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə oktyabrın 10-da rayon ərazisindəki evlərin birindən 4000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən, əvvəllər məhkum olunmuş 39 yaşlı O.Bəylərov müəyyən olunaraq saxlanılıb. Araşdırma aparılır.

# Ulduz futbolçuya ittiham - qıza təcavüz edib...

***Futbol üzrə Fransa millisinin və ”Real”ın futbolçusu Kilian Mbappe İsveçdə bir qıza təcavüz etməklə günahlandırılır. QOL.az xəbər verir ki, bu barədə ”RMC Sport” məlumat yayıb. İsveç polisi artıq məsələyə ilə bağlı araşdırmaya başlayıb. Məlumata görə, hadisə 2024-cü il oktyabrın 10-da Stokholmun mərkəzindəki oteldə baş verib. İlkin istintaqı böyük prokuror Marina Çirakova aparır. Prokuror mətbuata açıq deyil.***



Futbolçunun ətrafı ittihamı tamamilə yalan adlandırıb. Mbapp isə bu durumu şərh edərək, keçmiş klubu PSJ-nin bu işdə əli olduğuna işarə vurub.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700